QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 240 (8556) ÇƏRŞƏNBƏ, 18 noyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# İLHAM ƏLİYEV Qarabağda Azərbaycan bayrağını öz əli ilə ucaltdı



## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar

Xəbər verdiyimiz kimi, noyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Füzuli rayonundan Şuşa şəhərinə yol çəkilişi ilə bağlı göstəriş verib. Artıq bu yolun inşasına start verilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva layihənin icrasının gedişi ilə tanış oldular.

**Prezident İlham Əliyev** dedi:

- Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür, tarixi bir gündür. Bu gün Füzuli-Şuşa avtomobil yolunun təməli qoyulur. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu yolun çox böyük əhəmiyyəti var. Çünki bu yol bizi Qarabağın tacı olan Şuşa şəhərinə aparır.

Son illər ərzində ölkəmizdə bir çox yollar inşa edilib. Deyə bilərəm ki, 2004-cü ildən bugünə qədər 16 min kilometrdən çox avtomobil yolu çəkilibdir və yollar keyfiyyətlidir. Bu göstəriciyə görə Azərbaycan dünyada qabaqcıl yerlərdədir. Ancaq bu yolun xüsusi əhəmiyyəti var. Dediyim kimi, bu yol bizi Şuşaya aparır. Eyni zamanda, bu layihə işğaldan azad edilmiş torpaqlarda icra edilən birinci layihədir.

Şuşa işğaldan azad olunandan sonra artıq düşmən dərk etdi ki, bundan sonra bizə qarşı müqavimət göstərmək heç bir əhəmiyyət kəsb etməyəcək. Şuşa işğaldan azad olunandan bir gün sonra qəhrəman Azərbaycan Ordusu daha 70-dən çox yaşayış məntəqəsini işğalçılardan azad edib və əslində, bu, düşmənə vurulan son zərbə idi. Təsadüfi deyil ki, noyabrın 10-da düşmən faktiki olaraq kapitulyasiya aktını imzalamışdır. Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi, Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaqdır. Çünki bu əməliyyatı yalnız yüngül silahlarla silahlanmış bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək icra ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir.

*Ardı 2-3-cü səh.*

# İLHAM ƏLİYEV Qarabağda





*Əvvəli 1-ci səh.*

Bu gün artıq biz quruculuq işlərinə başlamışıq. Qələbə günündən 8 gün və Ermənistanın kapitulyasiyasından 6 gün keçəndən sonra artıq bu yerdən - Alxanlı qəsəbəsindən Füzuli-Şuşa avtomobil yolu çəkilir. Bu yol çox rahat və geniş olacaq. Bu yol imkan verəcək ki, Şuşaya rahat gedib-gələ bilək.

İkinci Qarabağ müharibəsi bizim şanlı Qələbəmizdir, işğal edilmiş torpaqlar işğalçılardan azad edilib. Düşmən tərəfindən vurulmuş ziyan hazırda hesablanır və dəqiq hesablanacaq. Zərərçəkmiş bütün insanlar dövlət dəstəyi hesabına öz dədə-baba torpaqlarına qayıdacaqlar. Bu işləri biz planlı şəkildə aparacağıq - ilk növbədə, ziyanın hesablanması, dəqiq uçotun aparılması, ondan sonra bərpa-yenidənqurma işləri.

Bildiyiniz kimi, işğal edilmiş və işğaldan azad olunmuş torpaqlarda düşmən bütün infrastrukturu dağıdıbdır. Bizim şəhərlərimiz, demək olar ki, yerlə yeksan edilibdir və bu, düşmənin vəhşiliyini bir daha göstərir. İndi bütün dünya bunu görəcək. Bütün dünya görəcək ki, biz hansı vəhşi düşmənlə üz-üzə qalmışdıq.

Hazırda münaqişənin siyasi həlli mərhələsidir. Bu mərhələdə də Azərbaycan istədiyinə nail olur və olacaq. Münaqişənin hərbi mərhələsi başa çatıb. Şuşanın azad edilməsi və noyabrın 9-da daha 70-dən çox yaşayış məntəqəsinin işğaldan azad edilməsi münaqişənin hərbi mərhələsinə son qoyub. Mən münaqişənin və İkinci Qarabağ müharibəsinin əvvəlində demişdim, bu gün də bunu böyük qürur hissi ilə bir daha deyirəm ki, məsələnin hərbi-siyasi həll yolları var idi və Azərbaycan bunu döyüş meydanında sübut edib. Biz düşməni məcbur etdik ki, kapitulyasiya aktına imza atsın və beləliklə, bizim bugünə qədər işğal altında qalan Ağdam, Laçın və Kəlbəcər rayonları da yaxın günlərdə Azərbaycana qayıdır. Amma baxın, görün, mənfur düşmən hansı vəhşiliklər törədir - evləri yandırırlar, məktəbləri yandırırlar, ağacları qırırlar, elektrik xətlərini qırırlar. Bütün dünya bunu görür, bütün aparıcı beynəlxalq kanallar bunu göstərir. Nə vicdan var, nə utanmaq var, nə əxlaq var. Ona görə İkinci Qarabağ müharibəsində qazanılmış qələbə böyük tarixi əhəmiyyətə malikdir. Bu, təkcə Azərbaycanın öz doğma torpaqlarının işğalçılardan azad edilməsi məsələsi deyil. Bu, eyni zamanda, bütün dünyaya, bütün işğalçılara göstərir ki, onların sonu bax, belə ola bilər. İşğalçıların, qəsbkarların sonu belə olacaq.

Bu gün bu gözəl təməlqoyma mərasimi böyük rəmzi məna daşıyır. Biz işğaldan azad edilmiş Füzuli şəhərindən və ona qədər olan kəndlərdən Füzuli şəhərinə qədər və Füzuli şəhərindən Şuşa şəhərinə yeni yol çəkirik. Bu yol heç vaxt olmayıb. Azərbaycan vətəndaşları yəqin bilirlər ki, Şuşaya sovet vaxtında yol Ağdam ərazisindən gedirdi - Ağdam-Xankəndi-Şuşa yolu. İndi bu yoldan istifadə etmək hələ ki mümkün deyil.

Bu gözəl hadisə münasibətilə bütün Azərbaycan xalqını bir daha ürəkdən təbrik edirəm. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yol işçiləri ilə xatirə şəkli çəkdirdilər.







# Azərbaycan bayrağını öz əli ilə ucaltdı





❖ ❖ ❖

Qeyd edək ki, Füzuli rayonuna gedən yolun ətrafında bir vaxtlar həyat qaynayıb, bu kəndlərdə insanlar firavan və sülh içində yaşayıblar. Ancaq ermənilər tərəfindən torpaqlarımızın işğala məruz qalmasından sonra azərbaycanlılar öz dədə-baba torpaqlarından qovulublar, erməni vandalları tərəfindən evlər yerlə yeksan edilib. Onlar daşı daş üstündə qoymayıblar, azərbaycanlıların tikdiyi evləri vəhşicəsinə dağıdıblar. Bunlar ermənilərin əməllərinin nəticəsidir.

Dövlət başçısı və birinci xanım işğaldan azad olunmuş Füzuli şəhərinə gəldilər.

Prezident İlham Əliyev Füzuli şəhərində şanlı Azərbaycan bayrağını qaldırdı. Bu görüntülər Azərbaycanın müasir tarixinin ən şanlı səhifələrindəndir. Müzəffər Ali Baş Komandan qəhrəman Azərbaycan Ordusunun işğaldan azad etdiyi tarixi torpağımızda üçrəngli bayrağımızı qaldırdı.

**Prezident İlham Əliyev** dedi:

- Füzuli şəhəri işğalçılardan azad edilib. Füzuli şəhərində Azərbaycan bayrağı qaldırılıb. Biz Füzuliyə qayıtmışıq. Ancaq indi yol boyunca dağıdılmış kəndləri və Füzuli şəhərini dağılmış vəziyyətdə görəndə adamın ürəyi ağrıyır. Vəhşilər bizim şəhərimizi nə günə salıblar?! Dağıdıblar, evləri dağıdıblar, bütün infrastrukturu dağıdıblar, bir dənə də salamat bina yoxdur. Bütün dünya görməlidir erməni vəhşiliyi nə deməkdir və bütün dünyaya biz bunu göstərəcəyik. Təkcə Füzuli yox, Ağdam şəhəri nə gündədir, başqa şəhərlər. Sanki bu torpaqlardan bir vəhşi qəbilə keçib. Hər şeyi dağıdıb, talan edib, bizim mədəni, tarixi, dini irsimizi silmək istəyib, ancaq istədiyinə nail ola bilməyib.

*Ardı 4-cü səh.*






# İLHAM ƏLİYEV Qarabağda





*Əvvəli 3-cü səh.*

Çünki biz gəlməli idik, qayıtmalı idik. Gəlmişik və qayıtmışıq. Düşməni qovmuşuq torpaqlarımızdan, Azərbaycanın Dövlət Bayrağını ucaltmışıq. Bundan sonra bu torpaqda biz yaşayacağıq, necə ki, əsrlərboyu biz yaşamışıq, bizim xalqımız yaşayıb.

Mənfur düşmən Füzulinin adını da dəyişdirib, bir eybəcər ad qoyubdur. Füzuli bizim dahi, böyük şairimiz Məhəmməd Füzulinin adını daşıyır. Biz bu adı bərpa etmişik. Dağıdılmış Füzuli şəhəri erməni faşizminin canlı şahididir. Bütün dünya bunu görməlidir və səssiz qalmamalıdır, necə ki, 30 il səssiz qalıb, 30 il biganə qalıb. O biganəlik faktiki olaraq erməni işğalını möhkəmləndirirdi. Bizi sanki bu vəziyyətlə barışmağa sövq edirdilər, sülh yolu ilə məsələ həll olunsun, ildən-ilə, 30 il ərzində biz eyni sözləri eşidirdik - münaqişənin hərbi həlli yoxdur, bu məsələ sülh yolu ilə həll olunmalıdır. Amma biz sübut etdik ki, münaqişənin həlli var, o cümlədən hərbi həlli var. Bizim qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına biz bunu bütün dünyaya sübut etmişik, münaqişənin hərbi həlli var və biz buna nail olmuşuq. Əgər bu hərbi həll olmasaydı, düşmən kapitulyasiya aktını imzalamazdı. Müharibənin ilk günlərindən mən deyirdim, Ermənistan rəhbərliyi, Ermənistanın ali baş komandanı, - əgər o adama, ümumiyyətlə, bu adı aid etmək mümkündürsə, - bəyan etməlisiniz, cədvəl verməlisiniz, nə vaxt hansı rayondan çıxırsınız. Ondan sonra biz müharibəni dayandırarıq. Əks-təqdirdə sona qədər gedəcəyik və getdik də. Füzuli, Hadrut, Cəbrayıl, Zəngilan, Qubadlı, Şuşa və Şuşadan bir gün sonra 70-dən çox kənd azad edildi, bütövlükdə 300-dən çox yaşayış məntəqəsi azad edildi, düşmənin beli qırıldı, düşmən diz çökdü və məcbur oldu noyabrın 10-da o kapitulyasiya aktına imza atdı, məhz bizim gücümüz hesabına. Biz düşməni məcbur etmişik, biz düşmənə yerini göstərmişik, biz Azərbaycan xalqının böyüklüyünü göstərmişik.

Otuz il ərzində həm Ermənistan rəhbərliyi, həm onların havadarları, ermənipərəst, azərbaycanofob qüvvələr tərəfindən ortalığa müxtəlif uydurmalar atılırdı ki, bəli, Ermənistanın güclü ordusu var, erməni xalqı döyüşkən xalqdır, Azərbaycan xalqı döyüşə bilmir. Məhv etmişik bu uydurmanı, göstərmişik ki, kim döyüşkən xalqdır, göstərmişik ki, kim müzəffər xalqdır. Sadəcə olaraq, 1990-cı illərin əvvəllərində Azərbaycanın başında duranlar ordu quruculuğuna fikir verməmişdilər, ölkəmizi xaosa, anarxiyaya sürükləmişdilər. O illərdə bizim torpaqlarımız işğal altına düşəndə ovaxtkı hakimiyyət vətəndaş müharibəsi başlamışdı, AXC-Müsavat cütlüyü öz əsgərlərini əsir götürmüşdü, Gəncəni bombalamışdı. Ona görə torpaqlar əldən getdi. İndi bax, Ermənistan əhalisi Azərbaycan əhalisinin yaşadığı illəri - 1992-ci illəri yaşayır.

Azərbaycan xalqı o mənfur hakimiyyəti bir ildən sonra yox etdi, süpürüb atdı. Heydər Əliyev hakimiyyətə gələndən sonra bütün müsbət meyillər inkişaf etməyə başlamışdır. Bu gün bizim ordumuz dünya miqyasında güclü ordular sırasındadır. Biz bütün dünyaya göstərmişik ki, yenilməz xalq Azərbaycan xalqıdır, müzəffər ordu Azərbaycan Ordusudur. Erməni mifini məhv etdik, erməni uydurmalarını məhv etdik, onları yerinə oturtduq, onlar bizim qabağımızda diz çöküblər və onlar bundan sonra bu damğa ilə yaşayacaqlar, rəzalət damğası ilə yaşayacaqlar. Biz isə bundan sonra qürur hissi ilə yaşayacağıq - müzəffər xalq kimi, güclü dövlət kimi, yenilməz ordu kimi, güclü iradə sahibi kimi.

Bu 44 gün ərzində, demək olar ki, müntəzəm surətdə müxtəlif mənbələrdən, müxtəlif ünvanlardan müxtəlif təzyiqlər, təhdidlər olurdu, sifarişlər, mesajlar, siqnallar göndərilirdi. Mən demişdim ki, heç kim bizim qabağımızda dura bilməz, sona qədər gedəcəyik. Mənfur düşmən şərtlərimizi qəbul etməlidir, dəqiq tarix göstərməlidir və məcbur olub göstərdi də. Ona görə bu günlərdə Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları möhtəşəm Qələbəmizi böyük qürur hissi ilə qeyd edir. Bu Qələbə bizim xalqımıza yaraşır, igid oğullarımıza yaraşır, dövlətimizə yaraşır və bu Qələbə gücümüzü göstərdi. Onu göstərdi ki, heç vaxt Azərbaycan bu vəziyyətlə barışmayacaq. Mən 17 il ərzində ölkə Prezidenti və Ali Baş Komandan kimi dəfələrlə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı öz sözlərimi demişdim. Demişdim, biz heç vaxt imkan verə bilmərik ki, tarixi Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın. Demişdim ki, heç vaxt Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu olmayıb və olmayacaq. Demişdim ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Demişdim ki, sülh yolu ilə mümkün olmasa, hərbi yolla bunu bərpa edəcəyik. Mənim çıxışlarım hər yerdə var, dərc edilib. Bu sözləri demişəm və buna əməl etmişəm. Ərazi bütövlüyümüzü bərpa etmişik, işğalçıları işğal edilmiş torpaqlardan qovmuşuq, ikinci erməni dövlətinin yaradılmasına imkan verməmişik, heç bir status haqqında söhbət gedə bilməz. Vahid Azərbaycan dövləti var. Çoxmillətli, çoxkonfessiyalı, mütərəqqi Azərbaycan dövləti var. Bütün Azərbaycan vətəndaşları, bütün xalqların, dinlərin nümayəndələri normal yaşayırlar, mehribanlıq, sülh şəraitində yaşayırlar. Erməni xalqı da belə yaşayacaq. Bizim erməni xalqı ilə işimiz yoxdur. Mən bu 44 gün ərzində çoxsaylı müsahibələrimdə demişəm, onlar bizim vətəndaşlarımızdır və onlar görəcəklər ki, Azərbaycan rəhbərliyi altında onlar yaxşı yaşayacaqlar, onlar kriminal, qorxaq xunta rejimindən öz yaxasını qurtarmalıdırlar. Dağlıq Qarabağın separatçı rəhbərləri qorxaqdırlar. Onların qorxaqlığını orada yaşayan ermənilər görüblər, Ermənistanda yaşayan ermənilər görüblər. Nə qədər adam fərarilik edib. Onların o xunta başçısı bunkerdə gizlənmişdi, burnunu belə bayıra çıxara bilmirdi. Bəs hanı sənin hünərin, cəsarətin?!

Biz Ermənistan ordusunu çökdürdük və eyni zamanda, Ermənistana uzun illər rəhbərlik etmiş cinayətkarlara da dərs verdik. Paşinyan son iki il ərzində öz ölkəsini məhv edib və indi, sadəcə olaraq, fikirləşir ki, öz canını erməni xalqının qəzəbindən necə qurtarsın?! Biz Koçaryan-Sarkisyan ordusunu məhv etdik. Onlar bizim torpaqlarımızı dağıdıblar. Onlar bu dəfə qorxaqcasına heç burunlarını soxa bilmədilər Dağlıq Qarabağ ərazisinə. Bəs hanı sizin qəhrəmanlığınız? Döşünüzə taxmısınız saxta "qəhrəman" ordenlərini, çıxardın atın eşiyə o dəmir-dümürləri, sizi biz məğlub etmişik.

# Azərbaycan bayrağını öz əli ilə ucaltdı



Paşinyan heç kimdir. Koçaryan və Sarkisyan, Azərbaycan xalqının cəlladları, Xocalı cəlladları, sizi biz məğlub etmişik, sizin ordunuzu məhv etmişik. Əgər kapitulyasiya aktı Ermənistan tərəfindən imzalanmasaydı, özləri bilirlər nə ilə qurtaracaqdı bu müharibə. Bax, budur bizim gücümüz, budur bizim birliyimiz. Dəmir yumruq sizin başınızı əzdi və bundan sonra artıq heç kim bizimlə ultimatum dili ilə danışmayacaq.

O cümlədən rəzil vəziyyətdə olan Paşinyan, bizə yeddi şərt irəli sürdü, başına vurduq bütün o şərtləri. Nə oldu o şərtlər? Mənim bir şərtim var idi, rədd ol, çıx get və o şərtə əməl edildi. Güc hesabına, birlik hesabına, igidlərimiz hesabına, şəhidlərimiz hesabına. Burada, işğaldan azad edilmiş Füzuli şəhərində bir daha bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, onların yaxınlarına səbir diləyirəm, onların valideynlərinə təşəkkürümü bildirirəm ki, dövlətimiz üçün, xalqımız üçün belə igidlər yetişdiriblər. Onların xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq. Bütün yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm, əminəm ki, onlar tezliklə normal həyata qayıdacaqlar, onlar daim diqqət mərkəzində olacaqlar.

Bizim bütün hərbçilərimiz, Füzuli və işğaldan azad edilmiş başqa torpaqlarda yaşamış sakinlər bilməlidirlər ki, biz bütün bu yerləri bərpa edəcəyik. Mən demişdim, Füzulidə bir dənə də bina tapılmadı ki, orada Azərbaycan bayrağı ucaldılsın. Amma biz bərpa edəcəyik. İndi müvafiq göstərişlər verildi, planlı şəkildə bunu edəcəyik, beynəlxalq ekspertləri dəvət etmişik, onlar da gələcəklər. Bütün dəymiş ziyanı birlikdə hesablayacağıq. Ondan sonra şəhərsalma üzrə mütəxəssisləri - həm Azərbaycan mütəxəssislərini, həm xarici mütəxəssisləri dəvət edəcəyik. Onlar da gələcəklər, yeni bir şəhərsalma planı qurulacaqdır. Kəndlərin, şəhərlərin, infrastrukturun, ekologiyanın bərpası - bütün bu planlar var. Hamısını icra edəcəyik, İnşallah, hamısını! Allahın köməyi ilə hamısını icra edəcəyik. Necə ki, torpaqlarımızı qaytardıq, düşməni məhv etdik, bu üçrəngli bayrağımızı ucaltdıq, bütün qalan məsələləri də həll edəcəyik. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

*Ardı 6-cı səh.*





# İLHAM ƏLİYEV Qarabağda





*Əvvəli 5-ci səh.*

Dövlətimizin başçısı sükan arxasında yolda gedərkən yol kənarına toplaşan insanları gördü və avtomobili saxlayaraq onlarla görüşdü.







# Azərbaycan bayrağını öz əli ilə ucaltdı



Cəbrayıla gedərkən avtomobili özü idarə edən **Prezident İlham Əliyev** dedi:

- Cəbrayıl rayonu. Gedirik Xudafərin körpüsünün yanına. Xudafərin körpüsü qabaqdadır.

Bu da Azərbaycan vətəndaşlarının vəhşi düşmən tərəfindən dağıdılmış evləridir.

Araz çayı, Azərbaycan-İran sərhədi. Dostluq sərhədidir.

Yol boyunca düşmənin dağıtdığı kəndləri görərkən bir daha şahidi oluruq ki, biz hansı vəhşi düşmənlə üz-üzəyik. Bunları gördükcə bir daha adam əmin olur ki, biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, biz yırtıcı düşməni məhv etmişik. Dünyada bir çox müharibələr olub, bu gün də gedir. Bu gün də bəzi yerlərdə işğal davam edir. Amma inanmıram ki, kimsə bu qədər qəddar, bu qədər qeyri-insani bir düşmənlə üz-üzə qalsın.

Bizim tarixi qələbəmiz erməni faşizmi üzərində əldə edilmiş qələbədir. Bizim zəfərimiz haqqın, ədalətin bərpasıdır. Bu gün, noyabrın 16-sı mənim həyatımda xüsusi tarix olaraq qalacaq. Çünki bir neçə dəqiqədən sonra biz qədim memarlıq abidəmiz olan Xudafərin körpüsünə yaxınlaşacağıq.

Bu dağlar artıq bizimdir, həmişə bizim olub. Ancaq 30 ilə yaxın düşmən bu dağlarda, bu torpaqlarda, bizim dədə-baba torpaqlarımızda oturub, bizə meydan oxuyub.

Vəhşi düşmən tərəfindən dağıdılmış evlərin hamısını bərpa edəcəyik.

Bu da Xudafərin su anbarıdır.

Bizdən aşağıda Araz çayıdır. İndi tunelə giririk. O tərəf qonşu dövlət İran İslam Respublikasıdır.

*Ardı 8-ci səh.*



# İLHAM ƏLİYEV Qarabağda







*Əvvəli 7-ci səh.*

Dövlət başçısı və birinci xanım Xudafərin körpüsünə gəldilər. Bu anlar da tariximizin səhifələrinə qızıl hərflərlə yazılacaq.

Prezident İlham Əliyev Xudafərin körpüsündə şanlı Azərbaycan bayrağını qaldırdı. Dövlət başçısının bayrağımızı tarixi Xudafərin körpüsündə qaldırması Azərbaycan xalqı üçün qürur və fəxarətdir. Xalqımızın mənəviyyatında, tarixində dərin iz buraxan Xudafərin həm də milli qürur məsələsi idi.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Araz çayının sahilini gəzdilər, Xudafərin körpüsünün önündə xatirə şəkilləri çəkdirdilər.



# Azərbaycan bayrağını öz əli ilə ucaltdı





Daha sonra dövlət başçısı və birinci xanım Cəbrayıl şəhərinə yola düşdülər.

Cəbrayıl şəhərinə gedən yolun ətrafı da eyni vəziyyətdədir. Budur, erməni işğalçılarının çirkin üzü. Bu, erməni vandallarının əsl mahiyyətini ortaya qoyur, onların kimliyini göstərir.

**Prezident İlham Əliyev:** Cəbrayıl şəhərinə giririk. Düşmən burada özü üçün hərbi hissələr yaradıb. Şəhərdə hərbi hissələrdən başqa bir şey yoxdur.

*Ardı 10-cu səh.*









# İLHAM ƏLİYEV Qarabağda Azərbaycan bayrağını öz əli ilə ucaltdı






















*Əvvəli 9-cu səh.*

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də işğaldan azad edilmiş Cəbrayıl şəhərinə gəldilər.

Xalqımızın uzun illər həsrətində olduğu anları yaşadıq. Dövlət başçısı, Ali Baş Komandan Cəbrayıl şəhərində də üçrəngli bayrağımızı qaldırdı.

**Prezident İlham Əliyev:** Cəbrayıl şəhəri işğaldan azad edilib, Azərbaycanın Dövlət Bayrağı ucaldılıb. Bütün Azərbaycan xalqını təbrik edirəm. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

Gedək baxaq bəzi binalara.

Bura düşmənin polis idarəsi olub. İndi Azərbaycan polisi keşik çəkir.

Baxın, mənfur düşmən Cəbrayıl şəhərini nə günə salıb. Bütün dünya bunu görsün. Görsün və bilsin ki, biz hansı yaramaz düşmənlə üz-üzəyik. Bütün binaları dağıdıblar, talan ediblər. Onların məqsədi var idi ki, bundan sonra burada heç vaxt azərbaycanlı insanlar yaşamasınlar. Yaşayacağıq, əbədi yaşayacağıq. Hamısını bərpa edəcəyik, hamısını. Baxın nə günə qoyublar. Otuz il ərzində bu barədə hansısa bir beynəlxalq qurum bir məsələ qaldırıbmı? Burada monitorinq aparılıbmı? İndi bütün dünya görəcək Cəbrayıl şəhərini nə günə salıblar.

Bura Cəbrayıl şəhərinin mərkəzidir. Bir dənə də salamat bina yoxdur. Bir dənə də salamat bina qoymayıblar. Yalnız orada özləri üçün hərbi hissə tikiblər. Bütün qalan infrastruktur, evlər, binalar, məktəblər, ictimai binalar - hamısı düşmən tərəfindən sökülüb.

Cavab verəcəklər. Beynəlxalq məhkəmələrdə cavab verəcəklər. Mən demişəm, bir daha demək istəyirəm ki, beynəlxalq qurumlar gələcək, ekspertlər gələcək, bütün ziyan hesablanacaq. Otuz il ərzində bizə vurulmuş ziyan hesablanacaq. Bu günlərdə Kəlbəcəri dağıdan, meşələri qıran, binaları, məktəbləri yandıran düşmən onun da cavabını verəcək.

Onlar hesab edirdilər ki, bu dağıntılardan sonra Azərbaycan əhalisi heç vaxt buraya qayıtmayacaq. O məqsədlə buranı dağıdıblar. Amma səhv ediblər. Biz qayıtmışıq. Bax, durmuşuq burada, öz doğma torpağımızda, Cəbrayıl şəhərində. Bütün buraları bərpa edəcəyik.

Yeni böyük baş plan tərtib ediləcək. Müvafiq göstərişlər verilib. Hər bir şəhər üçün xüsusi baş plan tərtib ediləcək. Burada bütün inzibati binalar, ictimai binalar, məktəblər, tibb ocaqları yaradılacaq. Bütün infrastruktur yaradılacaq. Küçələr salınacaq, parklar, xiyabanlar salınacaq. Bütün şəhərlərdə qələbə abidələri ucaldılacaq və həyat qayıdacaq.

Yenə də Azərbaycan vətəndaşları burada yaşayacaqlar, quracaqlar, yaradacaqlar. Amma bugünkü tarix heç vaxt silinməyəcək. Erməni vəhşiliyinin canlı şahidləridir, bax, bu dağılmış evlər. Bu evlərdə Azərbaycan vətəndaşları yaşayıb, mülki vətəndaşlar yaşayıb. Mənfur düşmən gəlib onları öz torpaqlarından didərgin salıb, onların binalarını dağıdıb, onların əmlakını mənimsəyib, talayıb. Düşmən oğru, əxlaqsız, vicdansız bir düşməndir. Mən bir daha demək istəyirəm ki, bizim parlaq Qələbəmiz təkcə ölkəmizin ərazi bütövlüyünün bərpası deyil. Bu, şərlə xeyir qüvvələrinin mübarizəsidir. Şər qüvvələri məğlub olub, amma biz qalib gəlmişik. Çünki biz qurub yaradanıq. Ermənilər isə bax, bunları ediblər, dağıdıblar.

Bərpa edəcəyik bunları, hamısını bərpa edəcəyik. Azərbaycan xalqı bir daha öz böyüklüyünü göstərəcək. Bir daha bütün dünyaya sübut edəcəyik ki, biz böyük xalqıq. Biz qayıtmışıq, vuruşa-vuruşa qayıtmışıq. Heç kim bizə bu torpaqları bağışlamayıb. Heç bir beynəlxalq təşkilat təcavüzkara təzyiq göstərməyib. Heç kim onlardan tələb etməyib ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etsin. Sadəcə olaraq, nə hərb, nə sülh, hər şeyi dondurulmuş vəziyyətdə saxlamaq, işğalı əbədiləşdirmək, bizim tarixi torpaqlarımızın tarixi irsini silmək, torpaqlarımızı erməniləşdirmək, şəhərlərimizə, kəndlərimizə eybəcər erməni adları vermək və bu məsələni Azərbaycan xalqının yaddaşından silmək idi onların məqsədi. Amma səhv etdilər. Dəfələrlə demişəm ki, biz bu işğalla heç vaxt barışmayacağıq. Hər bir cəbrayıllı bir arzu ilə yaşayırdı ki, öz dədə-baba torpağına qayıtsın.

Haqq-ədalət zəfər çaldı. Müzəffər Azərbaycan Ordusu zəfər çaldı. Düşmənin beli qırıldı. Düşmən torpaqlarımızdan qovuldu. Azərbaycan bayrağı işğaldan azad edilmiş torpaqlarda qaldırıldı və əbədi dalğalanacaq.

Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

# Moldova Respublikasının yeni seçilmiş Prezidenti zati-aliləri xanım Maya Sanduya

Hörmətli xanım Sandu.

Moldova Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

İnanıram ki, Azərbaycan-Moldova ənənəvi dostluq və əməkdaşlıq münasibətləri birgə səylərimizlə xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Moldova xalqının rifahı naminə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 noyabr 2020-ci il*

# Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Qarabağ bölgəsində erməni təcavüzünə məruz qalmış bütün torpaqlarımız, o cümlədən Qarabağın tacı olan Şuşa 2020-ci il sentyabrın 27-də başlanmış Vətən müharibəsinin Azərbaycan xalqının tarixi Qələbəsi ilə başa çatması nəticəsində işğaldan azad edilmişdir.

27 il müddətində işğal altında saxlanılan ərazilərimizdə yaşayış məntəqələrinin əksəriyyəti, orada həyat üçün zəruri olan sosial-iqtisadi infrastruktur obyektləri dağıdılmış, təbii sərvətlər talan edilmiş, tarixi-mədəniyyət və dini abidələrimizə, ətraf mühitə ciddi ziyan vurulmuş, fərdi və çoxmənzilli yaşayış evləri yerlə yeksan edilmişdir.

Dədə-baba yurdlarından didərgin salınmış insanların işğaldan azad olunmuş ərazilərə qayıdaraq məskunlaşmasının, habelə dayanıqlı və davamlı iqtisadi fəallığının təmin edilməsinə yönəldilən infrastruktur layihələrinin tərtibi, sənaye və kənd təsərrüfatı müəssisələrinin, sosial təyinatlı obyektlərin inşası, habelə əhalinin mənzil-məişət məsələlərinin həlli ilə bağlı müvafiq təkliflər hazırlanır və artıq bir sıra yaşayış məntəqələrində bu sahələrdə zəruri işlərin həyata keçirilməsinə başlanılmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, bu istiqamətdə aparılan işlərin davam etdirilməsi məqsədilə **qərara alıram:**

1. Ümumi uzunluğu 101,5 kilometr olan Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 50,0 (əlli) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşunun (investisiya xərclərinin) bölgüsündə bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun tikintisinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 noyabr 2020-ci il*

# Birinci vitse-prezident Mehriban Əliyeva Milli Dirçəliş Günü münasibətilə xalqımızı təbrik edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Milli Dirçəliş Günü münasibətilə paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

"Bütün Azərbaycan xalqını Milli Dirçəliş Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm, həmvətənlərimizin hər birinə möhkəm cansağlığı, sevgi və səadət diləyirəm!

Bu gün bizim hamımızı Vətənimizə ən nurlu, səmimi hisslər, ona, onun uğurlarına, nailiyyətlərinə və qələbələrinə görə qürur duyğuları birləşdirir! Qoy Azərbaycan xalqının həmrəyliyi və dövlət müstəqilliyimiz əbədi olsun! Qoy Azərbaycanda daim sülh, firavanlıq və təhlükəsizlik hökm sürsün! Uca Tanrı xalqımızı və Vətənimizi qorusun!"

# "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 56; 2015, № 2, maddə 92, № 5, maddə 496, № 7, maddə 821; 2016, № 6, maddələr 999, 1007; 2017, № 10, maddə 1769; 2018, № 7 (I kitab), maddə 1425, № 11, maddələr 2204, 2205; 2019, № 2, maddə 187, № 4, maddə 579, № 5, maddə 797, № 6, maddə 986; 2020, № 7, maddə 831) aşağıdakı dəyişikliklər edilsin:

1. 36-cı maddənin "Qeyd" hissəsinə "hərbi qulluqçular" sözlərindən sonra ", habelə müvafiq icra hakimiyyəti orqanında zabitlərin həqiqi hərbi xidmətinə könüllü daxil olan, bu Qanunun 36.1.4-cü maddəsində göstərilən vətəndaşlar" sözləri əlavə edilsin.

2. 37.1.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 37.1.4-cü maddə əlavə edilsin:

"37.1.4. müvafiq icra hakimiyyəti orqanında birbaşa kadr zabit heyətinə könüllü daxil olanlar üçün - hərbi xidmətə daxil olmaları barədə əmrin imzalandığı gün.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 oktyabr 2020-ci il*

# "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 27 oktyabr tarixli 191-VIQD nömrəli Qanununun tətbiqi və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin təsdiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 27 oktyabr tarixli 191-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin təsdiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 82; 2015, № 2, maddə 138, № 7, maddə 831, № 11, maddə 1320; 2016, № 6, maddə 1034, № 10, maddə 1612; 2017, № 12 (I kitab), maddələr 2282, 2294; 2018, № 11, maddə 2258; 2019, № 5, maddə 847; 2020, № 7, maddə 878) 5.13-cü bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 5.14-cü bənd əlavə edilsin:

"5.14. həmin Qanunun 36-cı maddəsinin "Qeyd" hissəsində və 37.1.4-cü maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti nəzərdə tutulur.".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 27 oktyabr tarixli 191-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 noyabr 2020-ci il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Otuz ilə yaxındır insan hüquqlarının və beynəlxalq hüquq normalarının pozulması ilə davam edən Azərbaycan ərazilərinin ermənilər tərəfindən işğalına Sizin müdrik rəhbərliyiniz və Ali Baş Komandanlığınız ilə hökumətinizin və Azərbaycan Ordusunun parlaq Qələbəsi sayəsində son qoyulmasını böyük qürur və sevinc hissi ilə izləyirik.

Hazırda Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü kimi və əvvəllər İslam Əməkdaşlıq Təşkilatının (İƏT) 9-cu Baş katibi vəzifəsində olarkən Qarabağda baş verən hadisələri daim yaxından izləmişəm. Həmişə inanmışam ki, gün gələcək, Azərbaycan xalqı doğma torpaqlarını işğaldan azad edəcək. Həmin gün artıq gəlib çatıb.

Mən səmimi-qəlbdən inanıram ki, işğal olunmuş torpaqlarınızı azad etməklə qazandığınız bu qələbə və müvəffəqiyyət müsəlman dünyasındakı digər bənzər problemlərin həllinə nümunə olacaq.

Beynəlxalq forumlarda Azərbaycanın haqq işinin təbliğ edilməsində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin mühüm rol oynamasından qürur duyuram.

Zati-aliləri, xahiş edirəm, ən yüksək hörmət və ehtiramımı qəbul edin.

***Ekmələddin İHSANOĞLU,***
***İslam Əməkdaşlıq Təşkilatının 9-cu Baş katibi, Türk Elm Tarixi Cəmiyyətinin fəxri prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

Hörmətli cənab Prezident.

Argentina Respublikasının İslam Mərkəzi ölkəmizdəki İslam icması adından Azərbaycanın tarixi ərazilərinin, o cümlədən 30 illik işğal zamanı müxtəlif məscidlərin dağıdıldığı Dağlıq Qarabağın rəmzi Şuşa şəhərinin qaytarılmasına nail olan xalqınızı bu böyük Qələbə münasibətilə təbrik etməkdən qürur hissi duyur.

Biz, həmçinin uca və mərhəmətli Allahdan Azərbaycan şəhidlərinin ruhuna rahatlıq bəxş etməsini, yaxınlarının ağrı və iztirablarını azaltmasını diləyirik.

Qoy, Allah Zati-alinizi hifz etsin və Azərbaycan xalqına sülh, əmin-amanlıq, xoşbəxt və firavan gələcək bəxş etsin!

Dua edirik ki, uca və mərhəmətli Allah Sizə vətənpərvər fəaliyyətinizdə ən parlaq nailiyyətlər qazanmağı nəsib etsin.

Fürsətdən istifadə edərək, Zati-alinizə ən yüksək hörmət və ehtiramımızı çatdırırıq.

*Dərin hörmətlə,*

***Anibal Baçir BAKİR,***
***Argentina Respublikasının İslam Mərkəzinin prezidenti***

***Hüseyn AJJAR,***
***Argentina Respublikasının İslam Mərkəzinin Baş katibi***

Zati-aliləri.

Sizi və Azərbaycan xalqını Milli Dirçəliş Günü münasibətilə Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın - GUAM-ın Katibliyi adından təbrik edirəm.

Otuz il əvvəl başlamış, bir çox dramatik və faciəvi dönəmlərdən, habelə dövlət quruculuğunun bir sıra mühüm mərhələlərindən keçən milli dirçəliş prosesi Azərbaycan Silahlı Qüvvələrinin şanlı Qələbəsi ilə özünün ən yüksək zirvəsinə çatdı və uzun müddətdir işğal altında qalan Azərbaycan torpaqlarının azad olunması ilə nəticələndi.

Biz nəinki müasir Azərbaycanın, həmçinin bütün regionun tarixində yeni bir səhifə açan bu tarixi Qələbə münasibətilə Sizi təbrik edirik. Bu Qələbə nəhəng potensialı, artan geostrateji əhəmiyyəti olan bir bölgə üçün perspektivli və nadir imkanlar, həmçinin inklüziv və hərtərəfli regional əməkdaşlıq, davamlı inkişaf üçün parlaq fürsətlər yaradır.

Biz bu Qələbəni həm də ədalətin təntənəsi, beynəlxalq hüququn norma və prinsiplərinin yerinə yetirilməsi kimi qiymətləndiririk. İnanırıq ki, bu Qələbə nəticəsində əldə olunmuş müsbət irəliləyişlər sülh və etimad mühitinin formalaşdırılması prosesində yeni dinamika yaradacaq. Bu da öz növbəsində bölgədəki hərbi qarşıdurmaların həllinə töhfə verəcək.

Sizi xüsusilə strateji baxışınız və səbrinizə əsaslanan rəhbərliyiniz sayəsində xalqınızın iradəsini səfərbər və onun birliyini təmin etməklə qazandığınız bu tarixi Qələbə münasibətilə təbrik edirəm.

Biz dörd dost ölkə və strateji tərəfdaşlardan ibarət regional təşkilat kimi regionda sülhün, sabitliyin, davamlı inkişafın möhkəmləndirilməsi prosesini dəstəkləməyə və ona töhfə verməyə hazır olduğumuzu bildiririk.

Bu əlamətdar bayram münasibətilə Sizə ölkənizin ərazi bütövlüyünün və suverenliyinin bərpasında, habelə Azərbaycan Respublikasının azad edilmiş ərazilərinin yenidən qurulmasında yeni-yeni uğurlar, daha böyük qələbələr arzulayırıq. Azərbaycan xalqına sülh, tərəqqi və rifah diləyirik.

***Altay ƏFƏNDİYEV,***
***GUAM-ın Baş katibi***

*Ukrayna, Kiyev şəhəri*

# Özbəkistan portalları Azərbaycan Prezidentinin və birinci xanımın Füzuli və Cəbrayıl rayonlarına səfəri barədə materiallar yerləşdirib




Özbəkistanın "qalampir.uz" və "aniq.uz" portalları öz səhifələrində Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilən Füzuli və Cəbrayıl rayonlarına, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərinə səfəri ilə bağlı özbək dilində məqalələr yerləşdirib.

Portallar yazır ki, Prezident İlham Əliyev Füzuli rayonundan Şuşa şəhərinə yol çəkilməsi ilə bağlı göstəriş verib. Artıq bu yolun salınmasına başlanıb.

Saytlar bildirir ki, Prezident İlham Əliyev ermənilər tərəfindən dağıdılan Füzuli şəhərində Azərbaycan bayrağını qaldırıb. Deyilir ki, yalnız Füzuli deyil, işğaldan azad edilən Zəngilan, Qubadlı və Cəbrayıl şəhərləri və kəndlər də yerlə yeksan edilib, bütün infrastruktur dağıdılıb.

Yazılarda bildirilir ki, sonra Prezident İlham Əliyev Xudafərin körpüsündə Azərbaycan bayrağını qaldırıb. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Araz çayının sahilində gəziblər, Xudafərin körpüsünün önündə xatirə şəkilləri çəkdiriblər.

Sonra dövlət başçısı Cəbrayıl şəhərində də Azərbaycan bayrağını qaldırıb.

Prezident İlham Əliyev Cəbrayılın mərkəzində deyib: "Baxın, mənfur düşmən Cəbrayıl şəhərini nə günə salıb. Bütün dünya bunu görsün. Görsün və bilsin ki, biz hansı yaramaz düşmənlə üz-üzəyik. Bütün binaları dağıdıblar, talan ediblər".

# *Milli Məclis Sədrinin birinci müavini:* "Xalq Müzəffər Ali Baş Komandanı ilə qürur duyur"



Erməni hərbi birləşmələri üzərində qazanılmış tarixi Qələbədən sonra Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə səfəri dövlət başçısının sevinc hisslərini, ilk növbədə, xalqla bölüşmək arzusundan irəli gəlir. Onun həmin bölgələrdə yaşayan əhali tərəfindən böyük coşqu və izdihamla qarşılanması isə xalqın öz Liderinə, müzəffər sərkərdəsinə bəslədiyi ehtiramın təzahürüdür.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli deyib.

Əli Hüseynli bildirib: "Bu, həm də onu göstərir ki, təhlükələrdən və çətinliklərdən çəkinməyən, öz xalqının maraqları naminə qətiyyətlə mübarizə aparan Prezident İlham Əliyev cəsarətli addımları və siyasi iradəsi ilə seçilən Liderdir. Bütün dövrlərdə və yaşanan hadisələrdə, ən ağır vəziyyətlərdə belə öz xalqının yanında olan Prezident hər bir işdə xalqın dəstəyinə arxalanır, ona güvənir. Ordunun qüdrətinə inam hissi, həmçinin ölkədəki milli və siyasi həmrəylik yaşadığımız Qələbənin ideoloji əsasına çevrilərək Prezidentin "Biz birlikdə güclüyük!" şüarı altında xalqın dəmir yumruq kimi birləşməsini təmin edib. Ölkədə fəaliyyət göstərən siyasi partiyaların böyük əksəriyyətinin Vətən müharibəsinin ilk günlərində yaydığı birgə bəyanat da bu baxımdan böyük əhəmiyyət kəsb edir".

Komitə sədrinin sözlərinə görə, öz işğalçılıq siyasətinin qurbanına çevrilmiş və üsyana qalxmış insanların qəzəbindən qorxub gizlənən Ermənistanın üzdəniraq baş naziri Paşinyandan fərqli olaraq, Azərbaycan Prezidenti hər zaman olduğu kimi, bu gün də öz xalqının yanındadır. Prezident İlham Əliyev Füzuli və Cəbrayıl rayonlarına tarixi səfər etməklə "Qarabağ Azərbaycandır və nida" ifadəsinin müəllifi kimi bir daha xalqa verdiyi bütün vədlərə sadiqliyini nümayiş etdirdi. Bununla da siyasətdə, diplomatiyada və hərbi strategiyada Prezident İlham Əliyevin adı bu zəfərin müəllifi kimi tarixə yazıldı.

"Mən hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm", - söyləyən Prezident İlham Əliyev Füzuli və Cəbrayıl rayonlarına səfəri ilə, eyni zamanda, hər bir hərbçinin Ali Baş Komandanı olduğunu sübut etdi. Azərbaycan Ordusu ilə döyüş meydanında məsuliyyətli davranışı nəticəsində Qələbənin mənəvi çəkisini daha da artırmış oldu. Bu, ilk növbədə, Müzəffər Ali Baş Komandanın beynəlxalq hüquq normalarına hörmətindən irəli gələn siyasi və hərb mədəniyyətinin təzahürüdür. Çünki erməni əsgərindən fərqli olaraq, mülki əhaliyə atəş açmayan, məsuliyyətli davranış nümayiş etdirən, eyni zamanda, humanist dəyərləri qoruyan bu ordu bölgədə sülhün və tərəqqinin təminatçısına çevrilmiş güclü dövlətin Silahlı Qüvvələridir.

Əli Hüseynli vurğulayıb ki, səfər zamanı Xudafərin körpüsünü ziyarət etməsi dövlət başçısının şərəfli Azərbaycan tarixinə və mədəni irsinə münasibəti baxımından rəmzi məna daşıyır və ibrətamizdir. Müzəffər Ali Baş Komandanın ölkənin birinci xanımı Mehriban Əliyeva ilə birgə işğaldan azad olunmuş ərazilərə səfəri Qələbəni şübhə altına salmaq istəyən bədxahlara sanballı bir mesaj kimi bütün mülahizələrə nöqtə qoymuş oldu.

# Azərbaycan-Türkiyə dostluğu, qardaşlığı ən yüksək səviyyədədir

Noyabrın 17-də Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev Azərbaycanda səfərdə olan İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Gənclər Forumunun prezidenti Taha Ayhanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Adil Əliyev İƏT Gənclər Forumunun ilk Baş Assambleyası da daxil olmaqla bir çox beynəlxalq tədbir və layihələrinə, o cümlədən Gənclər Forumunun Avrasiya üzrə Regional Mərkəzinin tədbirlərinə Azərbaycanın evsahibliyi etdiyini bildirib. O, Azərbaycan Prezidenti İlham Əliyevin dövlət siyasətinin əsas istiqamətlərindən biri olan gənclər və idman sahəsinə böyük önəm verdiyini söyləyib. Bunun bariz nümunəsi olaraq IV İslam Həmrəyliyi Oyunlarının Bakı şəhərində keçirildiyini diqqətə çatdırıb. Adil Əliyev ölkəmizin evsahibliyi etdiyi bu idman yarışlarının həm də islam ölkələri arasındakı həmrəyliyin daha da gücləndirilməsində vacibliyini bildirib. Hazırda bu nüfuzlu təşkilata qardaş Türkiyənin rəhbərlik etməsinin əhəmiyyəti vurğulanıb.

Vitse-spiker bildirib ki, qədim tarixə malik Azərbaycan-Türkiyə dostluğu, qardaşlığı bu gün daha yüksək səviyyədə həyata keçirilir. Ölkələrimiz arasında qarşılıqlı dəstək və strateji tərəfdaşlıq əlaqələrinin inkişafında dövlət başçılarının səmimi münasibətləri müstəsna rol oynayır. A.Əliyev Qarabağ uğrunda gedən Vətən müharibəsində, ərazi bütövlüyümüzün bərpa edilməsində, torpaqlarımızın işğalçılardan azad olunmasında Türkiyənin verdiyi siyasi və mənəvi dəstəyə görə hər bir Azərbaycan vətəndaşının minnətdarlığını ifadə edib.

Qonaqların ölkəmizə səfərinin olduqca əlamətdar günlərə təsadüf etdiyini bildirən Adil Əliyev xalqımızın 30 illik nisgilinə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə Azərbaycanın möhtəşəm Qələbəsi ilə son qoyulmasına diqqət çəkib. Şanlı Ordumuzun qısa zamanda Ermənistan üzərində misilsiz Qələbə qazandığını, uzun illər öz yurd-yuvasından didərgin salınan bir milyondan çox soydaşımızın doğma evlərinə qayıtmağa hazırlaşdığını bildirib.

Görüşdə vitse-spiker Milli Məclisin qanun yaradıcılığı prosesindən danışıb, rəhbərlik etdiyi Gənclər və idman komitəsinin fəaliyyəti barədə məlumat verib.

Səmimi görüşə görə təşəkkürünü bildirən İslam Əməkdaşlıq Təşkilatının Gənclər Forumunun prezidenti Taha Ayhan Gənclər Forumunun gördüyü işlər, həyata keçirdiyi layihələr barədə ətraflı məlumat verib. Hazırda forumda dünyanın 46 ölkəsindən, o cümlədən qeyri-müsəlman ölkələrdən müsəlman gənclərin də təmsil olunduğunu qeyd edib.

Qonaq Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında forumun fəal iştirakını diqqətə çatdırıb, "Xocalıya ədalət!" beynəlxalq məlumatlandırma kampaniyası çərçivəsində səylərini əsirgəmədiyini vurğulayıb.

Görüşdə çıxış edən Milli Məclisin Gənclər və idman komitəsi sədrinin müavini Şahin İsmayılov İslam Əməkdaşlıq Təşkilatının Gənclər Forumunun rəhbərinin ölkəmizə səfərini yüksək qiymətləndirib. O, gənclər arasında möhkəm əlaqələrin vacib olduğunu, bu sahədə müsbət dinamikanın müşahidə edildiyini söyləyib. Azərbaycan ilə Türkiyə arasında münasibətlərin yüksələn xətlə inkişafından məmnunluğunu bildirib.

Gənclər və idman komitəsinin üzvü Eldəniz Səlimov çıxışında İslam Əməkdaşlıq Təşkilatının Gənclər Forumu ilə qarşılıqlı faydalı əməkdaşlıqdan söhbət açıb. Bu günlərdə yaşadığımız Qələbənin sevincindən bəhs edən deputat bu böyük zəfərin əldə edilməsində Türkiyə dövlətinin və xalqının dəstəyinə görə təşəkkür edib.

Görüşdə eyni zamanda gənclər siyasəti sahəsində əlaqələrin inkişafı və tərəfləri maraqlandıran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.



# Müzəffər sərkərdənin Qarabağa qalibiyyət səfəri

Bu son bahar yurdumuza bir başqa gözəllik, bir başqa bar-bərəkətlə qədəm qoydu. Al-əlvan rəngli zəfərləri, göylərdən süzülən nur yağışı xalqımın taleyinə naxış saldı. Bu payızda hər tərəfdən buram-buram vətən qoxusu gəldi, üçrəngli məğrur bayrağım Kiçik Qafqazın şah zirvələrində dalğalandıqca coşan rüzgarlar bütün Azərbaycan elinə Qarabağın azadlıq, qələbə müjdəsini yaydı!

Göydə şimşək kimi çaxıb, ildırım tək kükrəyərək "sən ey yağı düşmən, diz çök önümüzdə, yurdumun məğrur aslanları gəlir!" deyə yeri-göyü titrədəcək sədalar eşidildi.

Bəli, düz 30 illik həsrətdən, qubardan, nisgildən sonra Qarabağın tutqun üzü açıldı, başındakı duman avazıdı, çən-çiskini dağıldı...

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Ordumuz, qəhrəman əsgərlərimiz müqəddəs torpaqlarımızdan düşmənin murdar ayağını kəsib atdı. Bütün elimizə, obamıza qələbə ərməğan etdi, yurdundan didərgin düşən yüz minlərlə vətəndaşımızın Vətən yarasına məlhəm çəkdi, yurda qayıdış ümidlərini dirçəltdi.

Və qalib Ali Baş Komandan İlham Əliyev düşmən caynağından azad edilən vətən torpaqlarına müzəffər sərkərdə kimi qədəm qoydu...

## Düşmən Qarabağı qəlbimizdən söküb atmaq istəmişdi

Mənfur düşmən bu illər ərzində nə məkrlər düşünmüş, nələri planlaşdırmamışdı ki... Hətta adı belə hansısa xalqdan oğurluq olan bu kiçik tayfa xəstə xülyalara qapılaraq zəbt etdiyi torpaqlarımızda əbədi qalmaq arzusunda olmuşdu. Elə bilmişdi ki, insanlığa xas olmayan hərəkətləri, vəhşilikləri ilə Şuşanı, Laçını, Kəlbəcəri, Ağdamı, ümumiyyətlə, Qarabağı xalqımızın qəlbindən söküb ata biləcək. Buna görə idi ki, işğal etdiyi bütün yurdlarımızı viran eləmiş, daşı daş üstündə qoymamışdı. Təbiətimizə qənim kəsilmiş, çaylarımızı qurutmuş, meşələrimizi yandırmış, qiymətli ağaclarımızı kəsib məhv etmişdi.

Bu illər ərzində yeraltı-yerüstü bütün sərvətlərimizi talayaraq qəsb etmiş, maddi-mədəni abidələrimizə yiyə durmağa çalışmışdılar. Doğma torpaqlarımızda Azərbaycan xalqından heç bir nişanə qalmaması üçün ağlagəlməz vəhşiliklərə əl atmışdılar.

Azərbaycan xalqının bir daha bu yurdlara dönməyəcəyini sanmışdılar...

## Daşına, torpağına qurban olum, ana Vətən!

Amma yanılmışdılar, cılız ağılları ilə anlaya bilməmişdilər ki, Qarabağ Azərbaycandır! Bu torpağın suyu-torpağı ilə yoğrulan xalqımın qəlbindən Qarabağ sevdasını yox etmək mümkün deyil və heç bir zaman dilimi bu hökmə qabil deyil, hətta 30 illik uzun bir ayrılıq olsa belə. Azərbaycan Ordusunun bir-bir azad etdiyi yurdlarımızın çəkiliş kadrlarına baxdıqca, o viranə qalan yurdlarımızı gördükcə bir ağızdan "can" dedik, "daşına, torpağına qurban olum, yaralı yurdum, tezliklə yaralarına məlhəm olmağa gələcəyik", "səni dardan qurtardıq, indi abadlaşdırmağa, yenidən cənnət-məkana çevirməyə gələcəyik" söylədik.

Dağılan məscidlərimizdən ucalan azan səsini eşitdikcə ruhumuz şad oldu, ümidlərimiz, arzularımız dirçəldi, qollarımıza qüvvət gəldi. Şuşada, Gövhər ağa məscidində sıra-sıra düzülüb dua edən igid əsgərlərimizə qoşulduq, "şükür sənə, İlahi, bizə Qarabağımızın azadlığını görməyi nəsib etdin" deyib əl açdıq göylərə.

Hələ 2016-cı ildə yağı tapdağından azad edilmiş Cocuq Mərcanlı kəndində Şuşa məscidinin bənzəri olan məscid tikilmişdi. Bu müqəddəs ocağın inşası ilə işğalçı Ermənistana və beynəlxalq aləmə həm də mesaj verilmişdi, işarə edilmişdi ki, gün gələcək, Şuşadakı məscid də bərpa ediləcək və oradan ucalan azan səsi Qarabağımızda, bütün Azərbaycanda əks-səda verəcək.

Bütün bu arzularımızın bir andaca çin olması, öləziyən ümidlərimiz müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyəti sayəsində həyata keçdi. Dövlət başçısı indi xoşbəxtliyini yaşadığımız bu günlərin şah memarı oldu, bizə qalibiyyət, qələbə sevinci bəxş etdi. Vətəni, xalqı qarşısında götürdüyü bütün öhdəlikləri yenə də layiqincə yerinə yetirdi, söz verdiyi kimi, yüz minlərlə məcburi köçkünün vətən həsrətinə son qoydu...

## Ali Baş Komandan cənnət Qarabağın mələyi Cəbrayıldan salamladı bizi

Müzəffər Ali Baş Komandan doğma Qarabağımıza qalib sərkərdə kimi qədəm qoydu. Ali Baş Komandan məğrur Füzuli yurduna qonaq oldu, cənnət Qarabağın mələyi Cəbrayıldan salamladı bizi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində oldular, min illərin şahidi Xudafərin körpüsünə baş çəkdilər.

Dövlət başçısı və birinci xanım bu ərazilərdə yolboyu mənfur ermənilərin yurdumuza qarşı necə vəhşiliklər, vandallıqlar törətdiklərinə bir daha şahidlik etdilər, bu dəhşətli mənzərələrə təəssüf hissi ilə baxdılar. Sükan arxasında belə bu faşist xislətli varlıqlara qarşı qəzəbini boğa bilməyən cənab Prezident söylədi ki, bütün dünya bunu görüb bilsin ki, biz hansı yaramaz düşmənlə üz-üzəyik: "Baxın, baxın Cəbrayıl şəhərini nə günə salıb mənfur düşmən. Bütün dünya bunu görsün, görsün və bilsin, hansı yaramaz düşmənlə biz üz-üzəyik. Bütün binaları dağıdıblar, talan ediblər. Onların məqsədi var idi ki, heç vaxt bundan sonra burada azərbaycanlı insanlar yaşamasınlar. Yaşayacağıq, əbədi yaşayacağıq! Hamısını bərpa edəcəyik, hamısını. Baxın nə günə qoyub. 30 il ərzində bu barədə hansısa bir beynəlxalq qurum bir məsələ qaldırıbmı? Burada monitorinq aparılıbmı? İndi bütün dünya görəcək. nə günə salıblar Cəbrayıl şəhərini"

Ali Baş Komandan elə Cəbrayıldan bu vəhşilikləri törədənlərin tezliklə beynəlxalq məhkəmələrdə cavab verəcəklərini bəyan etdi.

## "Biz qayıtmışıq"

Onu da vurğulamalıyıq ki, Azərbaycan illər boyu erməni vandallarının xalqımıza qarşı törətdikləri vəhşiliklərə baxmayaraq, öz humanist mövqeyindən heç zaman əl çəkməyib. Elə Kəlbəcəri boşaltmaları üçün onlara daha 10 gün möhlət verilməsi də insanpərvərliyin, humanizmin ən bariz nümunəsidir. Bəs qarşılığında nə görürük? Erməni vandalları Kəlbəcərdə meşələri yandırır, ağacları kəsib Ermənistana daşıyır, evlərə od vurur, alban məbədlərini talan edirlər. Bütün dünya da görür ki, onlar yenə də öz çirkin əməllərindən əl çəkmirlər, ya da çəkə bilmirlər, "qozbeli qəbir düzəldər".

Amma onların Kəlbəcərdə törətdikləri bu iyrənc əməllərə də göz yumulmayacaq, törətdikləri vəhşiliklərə görə cavab verəcəklər.

Qarabağa zəfər səfəri edən qalib Ali Baş Komandan da Kəlbəcərdə ermənilərin törətdikləri yanğınların cavabının veriləcəyini dedi: "Mən demişəm, bir daha demək istəyirəm, beynəlxalq qurumlar, ekspertlər gələcək, bütün ziyan hesablanacaq, 30 il ərzində bizə vurulmuş zərər nəzərə alınacaq və onlara qarşı təzminat iddiası qaldırılacaq. Bugünlərdə Kəlbəcəri dağıdan, meşələri qıran, binaları, məktəbləri yandıran düşmən onun da cavabını verəcək. Onlar düşünürdülər ki, bu dağıntılardan sonra heç vaxt Azərbaycan əhalisi bura qayıtmayacaq. O məqsədlə buraları dağıdıblar. Amma səhv ediblər. Biz qayıtmışıq, durmuşuq burda, öz doğma torpaqlarımızda, Cəbrayıl şəhərində. Bütün buraları yenidən bərpa edəcəyik".

## İlham Əliyev bir daha bəyan etdi: "Qarabağ Azərbaycandır!"

Nə xoşdur Qarabağın səmalarında məğrur Azərbaycan qartallarının süzməyini seyr etmək. Necə bəxtəvərlikdir Xudafərin körpüsünə igid vətən övladlarımızın yol almasına tamaşa etmək. Sanki bu payızdan elimizə bahar nəfəsi yayıldı, yaz ətri səpildi. 30 illik Qarabağ həsrətimizə son qoyuldu.

Cəmi bir neçə ay əvvələ qədər röyalarımızın bəzəyi, ümidlərimizin zirvəsi olan bu arzuları cənab Ali Baş Komandan İlham Əliyev düşmənin başına endirdiyi bir yumruğunun zərbəsi ilə həyata keçirdi.

Müzəffər sərkərdəmiz işğaldan azad edilən doğma torpaqlarımıza, Cəbrayıla, Füzuliyə qalibiyyət səfəri edərək bir daha qorxaq düşmənə bəyan etdi ki, Qarabağ Azərbaycandır!

Qələbə günündən 8 gün və Ermənistanın kapitulyasiya aktını imzalamasından 6 gün keçəndən sonra Ali Baş Komandan Füzuli-Şuşa avtomobil yolunun çəkilişinə göstəriş verməklə bu haqq nidasını tezliklə Şuşadan, Laçından Kəlbəcərdən, Ağdamdan və digər Qarabağ torpaqlarından bütün dünyaya bəyan edəcəyi barədə xoş müjdə verdi...

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Beynəlxalq Türk Akademiyası hərbi əməliyyatların dayandırılmasına dair üçtərəfli bəyanatı alqışlayır

Noyabrın 17-də Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırəli ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Xarici İşlər naziri Ceyhun Bayramov Beynəlxalq Türk Akademiyasının fəaliyyətinin türkdilli ölkələr arasında əməkdaşlıq əlaqələrinin gücləndirilməsinə xidmət etdiyini bildirib. Nazir akademiyanın türk dünyası irsinin, tarixinin və mədəniyyətinin araşdırılmasında apardığı işlərin ölkəmiz tərəfindən yüksək qiymətləndirildiyini ifadə edib.

Ceyhun Bayramov Azərbaycan tarixinin xüsusi dövrünü yaşadığını qeyd edərək bu zaman çərçivəsində ölkəmizin ədalətli mövqeyini dəstəkləyən beynəlxalq təşkilatlar sırasında olan Beynəlxalq Türk Akademiyasına təşəkkürünü bildirib, bu dəstəyin həmişə ölkəmiz tərəfindən xüsusi minnətdarlıqla xatırlanacağını vurğulayıb.

Darxan Kıdırəli bu səfərin hərbi toqquşmaların davam etdiyi bir vaxtda planlaşdırıldığını, lakin qələbəyə təsadüf etməsinin məmnunluq doğurduğunu bildirib. O, bütün hərbi əməliyyatların dayandırılmasına dair üçtərəfli bəyanatı alqışlayıb və bu xüsusda Beynəlxalq Türk Akademiyası adından təbriklərini ifadə edib. Darxan Kıdırəli şəhidlərimizə rəhmət və yaralılara şəfa diləyib.

O, Qazaxıstan Respublikası hökuməti ilə Türk Akademiyası arasında bu qurumun yerləşdirilməsi şərtləri və qaydaları haqqında saziş imzalandığını nazirin diqqətinə çatdırıb. Darxan Kıdırəli Türk Akademiyasının yeni nəşrlərini nazirə təqdim edib.

Ceyhun Bayramov akademiyanın yeni nəşrlərinin türk dünyası üçün dəyərli töhfə olduğunu bildirib. Nazir həmçinin Qazaxıstan Respublikası hökuməti ilə Türk Akademiyası arasında sazişin imzalanması, beləliklə də, akademiyanın tam fəaliyyətə başlaması üçün hüquqi prosedurların yekunlaşması münasibətilə həmsöhbətini təbrik edib.

Görüş zamanı tərəflər Türk Akademiyasının gələcək layihələri və əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi də aparıblar.

# Azərbaycan həqiqətlərinin beynəlxalq müstəvidə təbliği işi bundan sonra da davam etdiriləcək

Noyabrın 17-də Azərbaycan Respublikasının Xarici İşlər Naziri Ceyhun Bayramov Azərbaycanda səfərdə olan İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Gənclər Forumunun prezidenti Taha Ayhanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov qarşı tərəfi salamlayaraq ölkəmizin İƏT Gənclər Forumu ilə faydalı əməkdaşlığını məmnunluqla qeyd edib və təşkilatın bugünədək böyük təşəbbüslərə imza atdığını bildirib. Azərbaycan tarixinin şərəfli səhifələrini yaşadığı bir dövrdə İƏT Gənclər Forumunun rəhbərliyinin ölkəmizə etdiyi bu səfərinin dəstəyin göstəricisi olduğu vurğulanıb. Öz növbəsində Azərbaycanın İƏT Gənclər Forumunun fəaliyyətini bundan sonra da tam şəkildə dəstəkləyəcəyi qeyd olunub.

Taha Ayhan Qarabağın sevinc, şərəf və xoşbəxtlik qaynağı olduğunu qeyd edərək hərbi əməliyyatların dayandırılması ilə bağlı bəyanatın imzalanmasını alqışlayıb. Keçirdiyi son görüşlərdə bölgədə yaşanan son gərginlik və Azərbaycanın beynəlxalq hüquqa əsaslanan haqlı mövqeyi barədə müzakirələrin aparıldığını qeyd edən Taha Ayhan bundan sonra da həqiqətlərin beynəlxalq müstəvidə təbliği işinin davam etdiriləcəyini bildirib.

Görüş zamanı, həmçinin təşkilatın Avrasiya üzrə Regional Mərkəzi tərəfindən həyata keçirilən tədbirlər ilə bağlı məlumat verilib.

Tərəflər, eyni zamanda, qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin iclası keçirilib

Noyabrın 17-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclası açan komitə sədri Sadiq Qurbanov tədbir iştirakçılarını torpaqlarımızın işğaldan azad olunması münasibətilə təbrik edib. Bildirilib ki, sentyabrın 27-dən başlayan 44 günlük müharibə tamamilə fərqli şəkildə aparılsa da, Prezidentimiz, Ordumuz və xalqımız bütün sahələrdə zəfər çalıb. Sadiq Qurbanov Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev başda olmaqla şanlı Ordumuzun bütün şəxsi heyətinə komitə üzvləri adından dərin təşəkkürünü bildirib.

Müharibədə şəhid olan əsgər və zabitlərin, həyatını itirən mülki vətəndaşların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra komitə sədri bugünkü iclasın gündəliyinə iki məsələnin daxil edildiyini deyib və "Ətraf mühitin mühafizəsi haqqında" qanun layihəsinə (birinci oxunuş) təklif edilən dəyişikliklər barədə ətraflı məlumat verib. Qeyd olunub ki, layihə ölkə Prezidentinin 2019-cu il 7 fevral tarixli "Azərbaycanda plastik qablaşdırma tullantılarının ətraf mühitə təsirinin azaldılmasına dair 2019-2020-ci illər üçün Tədbirlər Planı"na əsasən hazırlanıb. Sadiq Qurbanov plastik tullantıların uzun müddət parçalanmamasının, təbiətdə miqdarının ilbəil artmasının, yandırılan zaman toksiki tüstünün atmosferi zəhərləməsinin ətraf mühitə mənfi təsirləri barədə danışıb. Bildirilib ki, qalınlığı az olan plastik torbalar çürüməyə qarşı davamlı olduğu üçün təbiətin çirklənməsində daha böyük rol oynayır. Sənədə təklif olunan dəyişiklikdə qalınlığı 15 mikrona qədər olan polietilen torbaların, habelə birdəfəlik istifadə üçün nəzərdə tutulan plastik qarışdırıcı çubuq, çəngəl, bıçaq, boşqab və stəkanların sahibkarlar tərəfindən idxalı, istehsalı, ticarət, ictimai iaşə və xidmət obyektlərində istehlakçıya satılması və verilməsi ilə bağlı məhdudiyyətləri nəzərdə tutur. Qeyd edilib ki, qanun layihəsinin polietilen torbalara münasibətdə 2021-ci il yanvarın 1-dən, digər birdəfəlik istifadə üçün nəzərdə tutulan məhsullara münasibətdə isə 2021-ci il iyulun 1-dən qüvvəyə minməsi təklif edilib.

İclasda İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilməsi barədə qanun layihəsi də birinci oxunuşda müzakirə edilib.

Sadiq Qurbanov qeyd edib ki, sənəd uyğunlaşdırma xarakteri daşıyır. Təklif olunan dəyişikliklər "Ətraf mühitin mühafizəsi haqqında" qanun layihəsinə edilən dəyişikliklərə əsasən, qalınlığı 15 mikrona qədər olan polietilen torbaların, habelə birdəfəlik istifadə üçün nəzərdə tutulan plastik qarışdırıcı çubuq, çəngəl, bıçaq, boşqab və stəkanların sahibkarlar tərəfindən idxalı, istehsalı, ticarət, ictimai iaşə və xidmət obyektlərində istehlakçıya satılması və verilməsi ilə bağlı müddəaların pozulmasına görə inzibati məsuliyyət hallarını özündə ehtiva edir.

Komitə üzvləri Asim Mollazadə, Nəsib Məhəməliyev, Fatma Yıldırım, İltizam Yusifov uzun illər işğal altında qalan və hazırda təhvil verilməsi prosesi həyata keçirilən torpaqlarımızda erməni vandalları tərəfindən törədilən vəhşilikdən, təbiətə və ətraf mühitə vurulan zərərdən, meşə və bitki örtüyünün, heyvanat aləminin qəddarlıqla məhv edilməsindən söz açıblar, müzakirə edilən sənədlərin ətraf mühitin mühafizəsində mühüm rol oynayacağını bildiriblər.

Sonda hər iki qanun layihəsinin Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə edilməsi qərara alınıb.

# Baş Prokurorluq Ermənistanın tarixi-mədəni abidələrimizə vurduğu ziyanla bağlı görülən işlərə dair məlumat yayıb

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Arxeologiya və Etnoqrafiya İnstitutunun bir sıra elmi işçilərinin işğaldan azad edilmiş ərazilərimizdə Ermənistan tərəfindən qanunsuz arxeoloji qazıntıların aparılması, Azərbaycana məxsus maddi və mədəni irs abidələrinin talanması barədə mətbuatda dərc edilmiş müraciətinə Baş Prokurorluq tərəfindən baxılıb.

Bununla əlaqədar Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, artıq işğaldan azad edilmiş ərazilərimizdə Ermənistan tərəfindən arxeoloji qazıntıların aparılması, tarixi maddi və mədəni irs abidələrinin talanması və digər epizodlarla bağlı Azərbaycan Respublikası Baş Prokurorluğunun İstintaq İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb, ibtidai istintaq aparılmaqla istintaq qrupu yaradılıb.

Cinayət işi üzrə müstəntiqlər tərəfindən hadisə yerlərinə baxış da daxil olmaqla zəruri istintaq hərəkətləri keçirilir. Habelə vurulmuş maddi ziyanın müəyyənləşdirilməsi üçün digər dövlət qurumları ilə birlikdə, o cümlədən tarixi və arxeoloji baxımdan dəymiş ziyanın müəyyən edilməsi məqsədilə mütəxəssislər və ekspertlər cəlb olunmaqla müvafiq tədbirlər həyata keçirilir.

Kütləvi informasiya vasitələrində dərc edilmiş müraciətdə yer alan digər faktlara da diqqət yetirilməklə, cinayət işi üzrə aparılan istintaq zamanı həmin xüsusatların araşdırılması təmin ediləcək.

İstintaqın gedişatı və nəticəsi barədə ictimaiyyətə əlavə məlumat veriləcək.

# 190 manat birdəfəlik ödəmə vəsaitlərinin köçürülməsi başa çatıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sərtləşdirilmiş xüsusi karantin rejiminin tətbiq olunduğu 10 şəhər və rayon (Lənkəran, Şəki, Cəlilabad, Biləsuvar, Qax, Zaqatala, Masallı, İsmayıllı, Quba, Xaçmaz) üzrə işsiz və xüsusi karantin rejimində gəlirini itirən qeyri-formal işləyən aztəminatlılar üçün 190 manat birdəfəlik ödəmə vəsaitlərinin köçürülməsini başa çatdırıb.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, həmin şəxslərə qeydiyyata alınmaq üçün müraciət edərkən qeyd etdikləri telefon nömrəsinə bu barədə SMS göndərilib. SMS-i aldıqdan sonra onlara verilmiş bank kartları vasitəsilə vəsaitlərini müvafiq bankın bankomatlarından əldə edə bilərlər.

Birdəfəlik ödəmə 10 şəhər və rayon üzrə 96 min 587 nəfərə ödənilib. Ümumilikdə bu ilin aprel-may aylarında, habelə sonralar sərtləşdirilmiş karantin rejimi tətbiq olunan rayonlar üzrə 3-cü, 4-cü və hazırkı 5-ci dəfə birdəfəlik ödəmələr verilib və bu məqsədlə ümumilikdə 350 milyon manatdan çox vəsait sərf olunub.

# Biz birlikdə güclüyük!

## Koronavirusla mübarizədə əsas amil vətəndaş məsuliyyətidir





Yer kürəsinin hər yerində tüğyan edən koronavirusun yayılmasının qarşısını almaq üçün aylardır mübarizə aparılır. Ölkələr çoxsaylı tədbirlər görür, virusun təsirinin azaldılması məqsədilə müxtəlif addımlar atır. Lakin hələ də qlobal pandemiyanın qarşısını tam almaq mümkün olmayıb. Dünyanın kabusuna çevrilmiş COVID-19 bəşəriyyəti iflic vəziyyətdə saxlamaqda, daha aqressiv şəkildə yoluxdurmaqda və can almaqda davam edir. Artıq yeni növ koronavirusa yoluxanların ümumi sayı 55 milyonu ötüb. Belə ki, indiyədək 55 341 406 nəfər koronavirusa yoluxub, 1 331 751 nəfər bu virusdan dünyasını dəyişib.

### Peyvənd təkbaşına pandemiyaya son qoymayacaq

Kritik vəziyyətlə əlaqədar əksər ölkələrdə karantin rejimi sərtləşdirilir, gediş-gəliş məhdudlaşdırılır, fövqəladə rejim tətbiq olunur, infeksiyanın yayılmasının qarşısının alınması üçün müxtəlif tibbi-profilaktik tədbirlər həyata keçirilir. Bəşəriyyət 11 aydır qlobal pandemiyaya qarşı hər cür savaşa qalxsa da, hələ də qalib çıxa bilmir. Görünən odur ki, pandemiyanın qarşısını ala biləcək peyvənd istehsal olunmayana qədər planetimiz taclı bəlaya qarşı təhlükədə qalmaqda davam edəcək.

Sevindirici hal isə ondan ibarətdir ki, peyvəndlə bağlı müsbət irəliləyişlər çoxdur. Bu günlərdə ABŞ-ın "Moderna Inc." biotexnologiya şirkəti klinik sınaqdan keçirdiyi COVID-19 əleyhinə potensial peyvəndin infeksiyaya yoluxmanın qarşısını almaqda 94,5 faiz təsirli olduğunu açıqlayıb. Bu nəticə potensial peyvəndin sonuncu sınaq mərhələsində əldə olunub. Klinik sınaqda iştirak etmiş 95 nəfərdən yalnız 5-i infeksiyaya yoluxub.

"COVID-19-u dayandıra biləcək bir peyvəndə sahib olacağıq" deyə şirkətin prezidenti Stephen Hoge açıqlamasında deyib.

"Moderna" peyvəndinin əsas üstünlüyü onun "Pfizer"in peyvəndindən fərqli olaraq ultra soyuq anbara ehtiyac duymamasıdır. "Moderna"nın potensial peyvəndi 2-8 dərəcə arasında olan soyuducuda 30 gün, altı aya qədər isə 20 dərəcə temperaturda saxlanıla bilər.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Gebreyesus isə peyvəndin COVID-19 pandemiyasının qarşısını ala bilməyəcəyini deyib: "Peyvənd əlimizdəki digər vasitələri tamamlayacaq, lakin onları əvəz etməyəcək. Peyvənd təkbaşına pandemiyaya son qoymayacaq".

Bu isə o deməkdir ki, peyvənd ixtira olunduqdan sonra da virusla mübarizədə qorunma tədbirlərindən maksimum istifadə etmək lazım gələcəkdir.

### İnfeksiyanın yayılma sürəti məhdudlaşdırıcı tədbirləri zəruri edir

Bütün dünyada olduğu kimi, son aylar Azərbaycanda da koronavirusa yoluxma sayında artım müşahidə olunur. Lakin digər ölkələrlə müqayisədə bizdə COVID-19-a yoluxma və ölüm faizi xeyli aşağıdır. Bu isə ölkəmizin qlobal pandemiyanın öhdəsindən gəldiyini aydın göstərir. Azərbaycan dövləti pandemiyanın yayılmağa başladığı ilk günlərdən qlobal bəlaya qarşı mübarizəyə start verib. Koronavirusa qarşı ölkəmizdə mümkün effektiv və zəruri tədbirlər ardıcıllıqla həyata keçirilib və yenə də davam edir. Dövlətimiz vətəndaşların sağlamlığını, təhlükəsizliyini qorumaq, virusun kütləvi yayılmasının qarşısını almaq üçün bütün imkanlardan istifadə edir.

Azərbaycanın COVID-19-la mübarizədə uğurlu fəaliyyəti, qəbul edilmiş qərarların vaxtında və yüksək keyfiyyətlə icrası ölkədə sanitar-epidemioloji vəziyyəti nəzarət altında saxlamağa imkan verib.

Təəssüf ki, oktyabr ayından etibarən Azərbaycanda koronavirusa gündəlik yoluxmada artım nəzərə çarpır, sanitar-epidemioloji durum ürəkaçan deyil. İnfeksiyanın bu cür yayılma sürəti bir sıra vacib məhdudlaşdırıcı tədbirlərin görülməsini zəruri edir. Elə ona görə də mövcud sanitar-epidemioloji vəziyyəti nəzərə alaraq Nazirlər Kabineti ölkə ərazisində xüsusi karantin rejiminin müddətini dekabrın 1-dək uzadıb. Bütün təhsil pillələri üzrə tədrisin distant təşkilinə başlanılıb. Müxtəlif şəhər və rayonların ərazisində xüsusi karantin rejiminin yeni qaydalarının tətbiq edilməsinə dair qərar qəbul edilib.

### Karantin qaydalarına riayət etməliyik

Bir müddət əvvəl mütəxəssislər ilin soyuq fəsillərində bütün tənəffüs yolları infeksiyalarının, o cümlədən yeni növ koronavirusun artacağı ilə bağlı xəbərdarlıq etmişdilər. Həmin infeksiyaların artım səbəbi soyuq havanın tənəffüs yollarının müdafiə qabiliyyətini zəiflətməsi nəticəsində infeksiyalara qarşı həssaslığın yaranmasıdır. Lakin bununla yanaşı, bizdən asılı olan səbəblər də var. Ölkədə Vətən müharibəsi başlayandan bəri infeksiyadan qorunma qaydaları ikinci plana keçdi. Hər kəsin diqqəti, fikri ön cəbhəyə, Azərbaycanın haqq savaşına yönəldiyi üçün koronavirus anlayışı aktuallığını itirdi. Xüsusən cəbhədə uğurlu əməliyyatların olması, vətəndaşlarımızın bu məsələyə münasibəti demək olar ki, koronavirusla mübarizəni unutdurdu. Bəzi vətəndaşlarda arxayınlığın və laqeydliyin yaranması, xüsusi karantin rejiminə, gigiyena qaydalarına riayət olunmaması, maskadan istifadənin azalması, distansiya saxlanmaması da Azərbaycanda COVID-19 infeksiyasına yoluxma hallarının kəskin artmasına, sanitar-epidemioloji vəziyyətin pisləşməsinə səbəb oldu.

Hazırda yaranmış mənfi tendensiyanı müsbətə doğru dəyişmək də bizim özümüzdən asılıdır. İndiki məqamda koronavirusla mübarizədə əsas amil vətəndaş məsuliyyətidir. Bizim vətəndaş olaraq aparacağımız mübarizə, üzərimizə düşən məsuliyyət karantin qaydalarına riayət etməkdir. Qaydalara nə qədər çox riayət edilərsə, yoluxma da o qədər az qeydə alınar. Qaydalara əməl edilmədikdə təbii ki, yoluxma sayı artır. Unudulmamalıdır ki, iaşə obyektləri, ictimai nəqliyyat, istənilən qapalı məkan, insanların sıx toplaşdığı yerlər infeksiyaya yoluxmaq üçün əlverişli məkanlardır. Vətəndaşlarımız mümkün qədər bu cür yerlərdən uzaq durmalı, kütləvi tədbirlərdə iştirakdan çəkinməli, iştiraka ciddi zərurət yarandığı hallarda isə qoruyucu vasitələrdən mütləq istifadə etməlidirlər. Bu gün hər kəs məsuliyyətli olmalı, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarlarına riayət etməli, özünü, yaxınlarını qorumalıdır.

Koronavirus ümumxalq problemidir və bu problemlə mübarizədə hamımız səfərbər olmalıyıq. Bu isə çətin deyil, belə ki, sadə yollarla - sosial məsafə saxlamaq, tibbi maskadan istifadə etmək və gigiyenik qaydalara əməl etməklə gözəgörünməz düşmənə - koronavirusa qalib gələ bilərik.

***Xəyalə MURADLI, "Azərbaycan"***

Dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da COVID-19-un geniş yayılması, koronavirus infeksiyasına yoluxma və ölüm hallarının kəskin artması müşahidə olunur. Ona görə respublikamızın bəzi bölgələrində xüsusi karantin rejimi bu və ya digər formada tətbiq edilir, qaydalar sərtləşdirilir.





## İnsanların qarşılıqlı təmasları məhdudlaşdırılmalıdır

Aylardır ki, Azərbaycan dövləti koronavirus infeksiyasının ölkəmizdə yayılmasının qarşısının alınması, əhalinin sağlamlığının qorunması istiqamətində ardıcıl tədbirlər həyata keçirir. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində respublikamızda yaradılmış tibbi infrastruktur, ölkəmizin potensial imkanları pandemiya ilə əlaqədar yaranan çətinliklərin öhdəsindən gəlməyə və vəziyyəti nəzarətdə saxlamağa imkan verir.

Bütün bunlara baxmayaraq, həkim-ekspertlərin açıqlamalarına və rəsmi statistik məlumatlara istinadən deyə bilərik ki, virus artmaqda davam edir. Odur ki, qeyd etdiyimiz kimi, ölkə ərazisində sanitar-epidemioloji vəziyyəti nəzərə alaraq Nazirlər Kabineti yanında Operativ Qərargah müxtəlif şəhər və rayonların ərazisində xüsusi karantin rejiminin yeni qaydalarının tətbiq edilməsinə dair qərar qəbul edib. İnfeksiyanın geniş yayıldığı Şəki və Lənkəran şəhərlərinin, Qax, Zaqatala, Biləsuvar, Cəlilabad, Masallı, İsmayıllı, Quba, Xaçmaz rayonlarının inzibati ərazisində tətbiq olunan yeni qaydalar, eləcə də Bakı, Sumqayıt, Gəncə, Yevlax, Mingəçevir, Şəki, Şirvan, Lənkəran şəhərlərində və Abşeron, Göygöl, Samux, Sabirabad, Quba, Ağstafa, Biləsuvar, Xaçmaz, İsmayıllı, Qax, Zaqatala, Cəlilabad, Masallı rayonlarına həftəsonları ictimai nəqliyyatın hərəkətinin dayandırılması ölkədə sanitar-epidemioloji vəziyyəti sabitləşdirmək, xəstəliyin digər ərazilərdə yayılmasını mümkün qədər məhdudlaşdırmaq məqsədi daşıyır.

### Koronavirusa yoluxma artarsa, karantin rejimi yenidən sərtləşdirilə bilər

Görünən odur ki, Bakı şəhəri, onun ətraf kənd və qəsəbələrində koronavirusa yoluxanların sayı əvvəlki aylara nisbətən xeyli çoxalıb. Buna görə Bakı Şəhər İcra Hakimiyyətinin aidiyyəti struktur bölmələri tərəfindən ötən şənbə və bazar günləri səhər saatlarından paytaxtın əsas küçə, prospekt və yollarında, eləcə də ətraf qəsəbələrində kommunal-təsərrüfat xidmətlərinin əməkdaşları tərəfindən xüsusi kimyəvi maddələrlə növbəti dezinfeksiya işləri həyata keçirilib. İş həcminin çoxluğu, habelə görüləcək işin keyfiyyətli və səmərəli olması nəzərə alınaraq dezinfeksiya tədbirləri iki gün davam etdirilib. Bu zaman istifadə edilən maddələrin qəbul olunmuş müəyyən toksikliyini nəzərə alaraq sakinlərə əvvəlcədən KİV vasitəsilə xəbərdarlıq edilmişdir. Küçələrdə aparılan dezinfeksiya işləri ilə yanaşı, Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamentinin əməkdaşları xüsusi qrafikə uyğun departamentin balansında olan yaşayış binalarında, liftlərdə, həyət və məhəllələrdə, idman-əyləncə qurğularında, məişət tullantılarının atıldığı konteyner meydançalarında tibbi-profilaktik və dezinfeksiyaedici tədbirləri həyata keçiriblər. Əsas məqsəd vətəndaşlarımızı pandemiyadan qorumaqdır.

Tibb üzrə fəlsəfə doktoru, dosent Şöhrət Qasımovun açıqlamasına görə, payız-qış aylarında yağışlı havalarda dezinfeksiya işləri lokal xarakter daşıyır. Odur ki vətəndaşlarımız koronavirusun daha çox yayılmasına imkan verməmək üçün karantin qaydalarına mümkün qədər ciddi riayət etməlidirlər. Dəfələrlə deyildiyi kimi, insanların məsuliyyətsizliyi, laqeydliyi infeksiyanın yayılma sürətini artırır. Təbii ki, bu da ölkəmizdə virusun artmasına, infeksiyaya yoluxma və ölüm hallarının kəskin çoxalmasına səbəb olur. Müşahidələrdən göründüyü kimi, paytaxt Bakıda, eləcə də respublikamızın bölgələrində virusa yoluxanların sayı durmadan artır, sanitar-epidemioloji vəziyyət gərginləşir. Buna görə də infeksiyanın yayılma sürəti yeni qaydaların tətbiq edilməsinə gətirib çıxara bilər.

Payız-qış aylarında kəskin respirator virus infeksiyalarına yoluxma riskinin yüksək olduğunu nəzərə çatdıran Ş.Qasımov onu da qeyd etdi ki, bu fəsillərdə soyuqlama zamanı insanlarda qrip xəstəliyinin əlamətləri də müşahidə edilir: "Bu halda işlər bir az da çətinləşir. Ona görə də soyuq havada qrip, soyuqlama koronavirus xəstəliyinin gedişini daha da ağırlaşdıra bilir".

Alim daha sonra bildirdi ki, qrip xəstəliyi özü xüsusi diaqnoz tələb edir. COVID-19 kimi xəstəliyə də diaqnoz yalnız PSR müayinəsi əsasında qoyulur: "Lakin əvvəllər də belə olub ki, qrip xəstəliyinə əlamətlərinə görə klinik diaqnoz qoyulub və bu, xəstəlik vərəqəsində tənəffüs yollarının infeksiyası kimi yazılırdı. Amma COVID diaqnozu klinik deyil, yalnız PSR müayinəsindən sonra qoyulur. Gündəlik statistikada müşahidə olunan artma-enmə faktına gəlincə, burada aparılan test sayı əhali kontingenti ilə müəyyənləşdirilir. Yəni bura tendensiya təsir etmir. Onsuz da hava-damcı yolu ilə keçən viruslar uşaqdan-böyüyə hamını bu xəstəliyə yoluxdura bilir. Amma bir məsələ daim diqqətdə saxlanılmalıdır ki, insan yoluxduğu zaman səhhətində hər hansı qeyri-adi hal hiss edərsə, tibbi yardım üçün mütləq sahə həkiminə müraciət etməlidir. Hamı nəzərdə saxlamalıdır ki, sosial məsafəni qoruyan, gigiyenik qaydalara əməl edən insanlara virus az miqdarda keçə bilir. Belələri xəstələnmədən virusa qarşı immunitet qazanır. Əgər hansı şəxslərə çox virus keçərsə, immuniteti nə qədər güclü olsa da, yenə də xəstələnib ciddi fəsadlarla qarşı-qarşıya qala bilər".

Bütün bunlar həm də onu deməyə ehtimal yaradır ki, SMS-lə icazə sistemi yenidən gündəmə gələ bilər. Ali dərəcəli həkim Həsən Məmmədov isə bildirir ki, vəziyyət belə davam edərsə, yoluxanların sayı daha da arta bilər. Xəstəliyin bir insandan digərinə çox asan və sadə yolla yoluxduğuna, yoluxma əmsalı yüksək bir xəstəlik olduğuna görə insan faktoru çox önəmlidir.

Koronavirusa yoluxma sayı gündən-günə artdığı üçün sərt karantin rejiminin yenidən tətbiq olunması, xüsusilə də SMS icazənin tətbiqi gündəmə gətirilir. Təcrübə göstərir ki, SMS icazə yenidən tətbiq olunarsa, yoluxma sayının azalması mütləqdir. Bundan əlavə, qapalı məkanlarda maskanın taxılmasına və sosial məsafənin saxlanılmasına nəzarət daha da gücləndirilməlidir.

Həkim H.Məmmədovun fikrincə, SMS icazənin yenidən tətbiq edilməsi gözləniləndir: "Karantin rejimi yenidən sərtləşdirilə bilər. Yoluxmaların sayının daha çox artmaması üçün sərt karantin tədbirlərinin görülməsi vacibdir. İnsanların bir-birilə təmasları məhdudlaşdırılmalıdır. Bilirsiniz ki, orta məktəblər və metro bağlanıb. Bunun özü də karantin rejiminin sərtləşdirilməsidir. Hətta evdə qalmağa qədər karantin rejimi sərtləşdirilə bilər. İnsanlarımız başa düşməlidirlər ki, indiki dövrdə karantin davranışlarına əməl etmək və vətəndaş məsuliyyətini ortaya qoymaq vacibdir. Əlbəttə, məsuliyyətsiz davranışlar yoluxmaların sayının dördrəqəmliyə keçməsinə səbəb olub. Ən təhlükəli məqam isə bu xəstəliyin ön cəbhəyə keçməsidir. Ona görə də lazım olan bütün tədbirlər görülməlidir".

Müsahibimiz hesab edir ki, qapalı məkanlarda maskanın taxılmasına və sosial məsafənin təmin edilməsinə nəzarət gücləndirilməlidir: "Əks təqdirdə, növbəti həftələrdən başlayaraq "SMS icazə" sisteminə keçilə bilər. Bundan əlavə, bəzi müəssisələrin bağlanması barədə qərarların verilməsi də gözləniləndir. Bütün bunlar yoluxma sayının artmasının qarşısını alan ən zəruri addımlardır".

Bir daha vətəndaşlarımızı COVID-19 virusu ilə mübarizədə mövcud karantin tələblərinə və həkimlərin məsləhətlərinə ciddi riayət etməyə, tibbi maskalardan və digər zəruri tibbi-profilaktik vasitələrdən istifadəyə, habelə ictimai yerlərdə kənar şəxslərlə minimum kontaktda olmağa çağırırıq.





***Rəhman SALMANLI, "Azərbaycan"***

## Koronavirusa daha 2075 nəfər yoluxub, 1139 nəfər isə sağalıb




Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 2075 yoluxma faktı qeydə alınıb, 1139 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 20 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 79 min 158 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 56 min 894 nəfər müalicə olunaraq sağalıb, 1005 nəfər vəfat edib. Aktiv xəstə sayı 21259 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 536 min 434 test aparılıb. Dünənki test sayı isə 13213-dür.

## Paytaxtın poliklinikaları gücləndirilmiş iş rejiminə keçib

Son günlər koronavirusa yoluxma hallarının artmasını nəzərə alaraq Səhiyyə Nazirliyinin idarəçiliyində olan (Bakı şəhəri üzrə) poliklinikalar gücləndirilmiş iş rejiminə keçib. Bu barədə nazirliyin Mətbuat xidmətindən bildirilib.

Məlumata görə, həftənin şənbə və bazar günləri də daxil olmaqla yeddi gün səhər saat 08:00-dan 18:00-dək vətəndaşlara COVID-19-la bağlı xidmətlər göstəriləcək. Bura evdə müalicə alan xəstələrin müşahidəsi, yaxmaların götürülməsi və kompleks vitaminlərin paylanması daxildir.

## Növbəti dəfə dezinfeksiya işləri aparılıb

Qubada vətəndaşlar arasında sərtləşdirilmiş karantin rejiminin tələblərinə əməl edilməsi məqsədilə maarifləndirmə və izahat işləri aparılıb. Koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə əhalinin daha çox olduğu yerlərdə, eləcə də aptek və ərzaq mağazalarında reydlər keçirilib.

Reydlər zamanı vətəndaşlara gigiyena qaydalarına riayət edilməsinin, tibbi maskadan istifadənin və sosial məsafənin saxlanılmasının vacibliyi izah olunub, tövsiyələr verilib. Eyni zamanda karantin qaydalarını pozan ticarət və ictimai iaşə obyektlərinin sahibləri, həmçinin vətəndaşlar qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb edilirlər.

Bununla yanaşı, Quba şəhərində xüsusi texnika vasitəsilə növbəti dəfə genişmiqyaslı dezinfeksiya işləri aparılıb. Dezinfeksiya işləri şəhərin park və xiyabanlarında, eləcə də əhalinin daha çox toplaşdığı digər məkanlarda təşkil edilib.

***AZƏRTAC***

## Tünlük olan məkanlarda maskasız gəzmək yolverilməzdir

Yeni növ koronavirus (COVID-19) infeksiyasının artım sürəti ən çox narahatlıq doğuran hallardan biridir. Xəstəliyin yayılma sürəti, qriplə oxşar əlamətləri və infeksiyadan qorunma üsulları indi hər kəsi düşündürür.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Tibb Universitetinin Cərrahiyyə Klinikasının Poliklinika şöbəsinin müdiri Səadət Aşurova bu barədə deyib: "İstər qripin, istərsə də koronavirusun əsas artımı mövsümi səbəblərlə əlaqədardır. Çünki biz elə iqlim şəraitində yaşayırıq ki, demək olar ki, payız mövsümü çox az davam edir və hətta çox vaxt yaydan birbaşa qış mövsümünə keçirik. Buna uyğun olaraq birbaşa yüngül yay paltarlarını qalın qış geyimləri əvəz edir. Havanın istidən soyuğa dəyişməsi, tərləmə nəticəsində qrip xəstəliyi yarana bilir. Ancaq koronavirusun artmasının səbəbi ictimai nəqliyyatda, park və xiyabanlarda insan sayının çoxluğudur. Həftənin şənbə və bazar günləri ictimai nəqliyyat işləmir, bu, heç də nəqliyyatın işinə fasilə vermək və nəqliyyatın istirahəti üçün deyil, əksinə, adamların evdən bayıra çıxmamaları, mümkün qədər az çıxmaları üçündür. Lakin nə görürük? Şənbə-bazar günləri insanlar daha çox görüşürlər, maska taxmadan parklara çıxır, sosial məsafəni gözləmir, təmaslardan çəkinmirlər. Maskanı heç də bütün gün taxmaqdan söhbət getmir, əgər böyük bir xiyabanda açıq havada insan sayı o qədər çox deyilsə, ara məsafəsi uzaqdırsa, təbii ki, maska taxmağa o qədər də ehtiyac yoxdur. Lakin şəhər mərkəzində, marketlərdə, tünlük olan məkanlarda maskasız gəzmək yolverilməzdir. Təəssüf ki, maska taxmaq qaydasına da heç də ciddi şəkildə əməl edilmir. İlin bu fəslində digər vaxtlara nisbətən orqanizmdə də immunitetin səviyyəsi aşağı düşür. Bütün bunlar üst-üstə gələndə isə yoluxma sayının artmasına gətirib çıxarır".

Həkim onu da qeyd edib ki, qrip xəstəliyi də koronavirusun bir növüdür. Doğrudur, qrip koronavirus kimi öldürücü olmasa da, ona yoluxma zamanı da təcrid prinsipləri qüvvədə qalır. Qripə yoluxma zamanı da xəstəliyin ailə üzvlərinə, ətrafdakılara sirayət etməməsi üçün qorunma tədbirlərinə əməl olunmalıdır. Yəni hər iki xəstəlik zamanı qorunmaq və mövcud qaydalara ciddi şəkildə əməl etmək tələb olunur.

O, daha sonra deyib: "Əslində birdəfəlik istifadə olunan maskalar iki saatdan bir dəyişdirilməlidir. Onu yuyub istifadə etmək olmaz, mütləq atılmalı və yenisi taxılmalıdır. Daha uzun müddət istifadəyə yararlı olan maskalar var və dəyişmək istəməyəndə onlardan istifadə etmək olar. Onlar olmadıqda nəm və yararsız hala düşən adi maskadan təkrar istifadə etmək olmaz.

Virusa yoluxan kəs sağalandan sonra 14 gün evdə qalmalıdır. Lakin sağalan kimi bu qaydaya əməl etmədən çöl-bayıra çıxmağa başlayırlar, bu da qətiyyən düzgün deyil. Çünki həmin adam özü yoluxmasa da, daşıyıcı kimi ətrafdakılar üçün təhlükə yaradır. Bu qaydaya əməl edilməsi də mütləqdir".

## Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) aşağıdakı lotlar üzrə açıq tender üsulu ilə elektron satınalma (eTender) keçirir

1. Fiziki təhlükəsizliklə bağlı avadanlıqların (Server) satın alınması.
2. Giriş-çıxışa nəzarət sisteminin, skan proqram təminatının və lisenziyalarının satın alınması.
3. RSA sistemi üzrə texniki xidmətin göstərilməsinin satın alınması.

İddiaçılara təklif edilir ki, **https://www.etender.gov.az** Dövlət satınalmalarının vahid internet portalına (Portal) asan və ya elektron imzaları vasitəsilə daxil olsunlar və eTender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün iddiaçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. eTenderdə iştirak etmək istəyən iddiaçılar Fiziki təhlükəsizliklə bağlı avadanlıqların (Server) satın alınması üçün 150 AZN, Giriş-çıxışa nəzarət sisteminin, skan proqram təminatının və lisenziyalarının satın alınması üçün 120 AZN və RSA sistemi üzrə texniki xidmətin göstərilməsinin satın alınması üçün isə 100 AZN məbləğində müəyyən edilən iştirak haqqını Portal üzərindən "ASAN ödəniş" sisteminə keçid edərək ARDNF-nin qeydiyyatdan keçmiş aşağıdakı hesabına köçürdükdən sonra tələb olunan sənədləri və tender təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər. Tələb olunan sənədlərin siyahısı Portalda göstərilmişdir.

Azərbaycan Respublikasının Dövlət Neft Fondu
Ünvan: AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165

**VÖEN: 9900041961**
**H/h:AZ84NABZ01360400000000001944**
**Bank: Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**M/h: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T bik: NABZAZ 2C**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tələb olunan sənədləri (tender təklifi və təklifin təminatı istisna olmaqla) 08 dekabr 2020-ci il saat 10:00-a, tender təkliflərini (təklifin təminatı ilə birlikdə) 16 dekabr 2020-ci il saat 18:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. Təkliflər 17 dekabr 2020-cu il saat 10:00-da açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.
eTenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Lənkəran Dövlət Universiteti Açıq Tender (e-tender) elan edir

Lot-1. Lənkəran Dövlət Universitetinin "Lənkəran şəhəri, Heydər Əliyev prospekti, 299 ünvanında yerləşən yataqxana binasının yenidən qurulması" işləri

Lənkəran Dövlət Universiteti büdcədənkənar vəsaiti hesabına açıq tender metodu tətbiq etməklə elektron satınalma vasitəsilə "Lənkəran şəhəri, Heydər Əliyev prospekti, 299 ünvanında yerləşən yataqxana binasının yenidən qurulması" işlərinin satın alınmasını həyata keçirir.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun öz tender təkliflərini https://www.etender.gov.az-dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. Müqavilənin yerinə yetirilməsi üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar.

İddiaçılar https://www.etender.gov.az-dövlət satınalmalarının vahid internet portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

İddiaçılar aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba "ASAN ödəniş" sistemi ilə köçürdükdən sonra əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

Tenderdə iştirak haqqı Lot-1. 700 (yeddi yüz) manat

**Lənkəran Dövlət Universiteti**
**Hesab № AZ97AIIB33080019443870045138**
**VÖEN-2600135481**
**"Kapital Bank" ASC Lənkəran filialı**
**Kod - 200383**
**VÖEN - 9900003611**
**M/H - AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. BIK AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *İddiaçının son bir ildəki (əgər daha az müddətdə fəaliyyət göstəribsə , bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayış;*
- *nizamnaməsi;*
- *qeydiyyatdan keçdiyi ölkə;*
- *rekvizitləri;*
- *iddiaçının təhsil müəssisələrinin satınalmalarında fəaliyyəti haqqında məlumat*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 07 dekabr 2020-ci il saat 17:30-a qədər, tender təklifi və bank təminatını isə 15 dekabr 2020-ci il saat 17:30-a qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı 16 dekabr 2020-ci il saat 17:30-da dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi *açıq tender elan edir*

- "Dönər biznesi ilə məşğul olan qida obyektlərinin sağlamlaşdırılması" layihəsi çərçivəsində dönər biznesi ilə məşğul olan obyektlərin sağlamlaşdırılması məqsədilə lazımi avadanlıqların və inventarların satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 100 (bir yüz) manat**
**Satınalan təşkilat: Dövlət Məşğulluq Agentliyi**

**VÖEN: 1300144711**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT CTREAZ22**
**H/HESABI: AZ18CTRE00000000000004788202**

**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış* ***(01.11.2020-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir);***
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti* ***(2019-cu il üzrə maliyyə hesabatının surəti tələb olunur);***
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı* ***(01.11.2020-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir);***
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovunun olmaması, məhkəmənin qərarı ilə fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri , yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **08.12.2020-ci il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **16.12.2020-ci il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **17.12.2020-ci il saat 17:00-da** açılacaqdır.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycanda əhalinin sayı 10 milyon 116 min 292 nəfərə çatıb



İlin əvvəlindən ölkə əhalisinin sayı 49 min 184 nəfər və ya 0,5 faiz artaraq 2020-ci il oktyabr ayının 1-i vəziyyətinə 10 milyon 116 min 292 nəfərə çatıb. Bu barədə AZƏRTAC-a Dövlət Statistika Komitəsindən məlumat verilib. Bildirilib ki, əhalinin 52,8 faizini şəhər, 47,2 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir. Bir kvadratkilometrə düşən əhalinin sayı 117 nəfər olub.

## Lənkəran Dövlət Universiteti Açıq Tender (e-tender) elan edir

Lot-1. Lənkəran Dövlət Universitetinin "Elmi kitabxana binasının əsaslı təmiri" işləri

Lənkəran Dövlət Universiteti büdcədənkənar vəsaiti hesabına açıq tender metodu tətbiq etməklə elektron satınalma vasitəsilə "Elmi kitabxana binasının əsaslı təmiri" işlərinin satın alınmasını həyata keçirir.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun öz tender təkliflərini https://www.etender.gov.az-dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. Müqavilənin yerinə yetirilməsi üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar.

İddiaçılar https://www.etender.gov.az-dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

İddiaçılar aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba "ASAN ödəniş" sistemi ilə köçürdükdən sonra əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

Tenderdə iştirak haqqı Lot-1. 1500 (bir min beş yüz) manat

Lənkəran Dövlət Universiteti

**Hesab № AZ97AIIB33080019443870045138**
**VÖEN-2600135481**
**"Kapital Bank" ASC Lənkəran filialı**
**Kod - 200383**
**VÖEN - 9900003611**
**M/H - AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. BIK AIIBAZ2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *iddiaçının son bir ildəki (əgər daha az müddətdə fəaliyyət göstəribsə , bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayış;*
- *nizamnaməsi;*
- *qeydiyyatdan keçdiyi ölkə;*
- *rekvizitləri.*
- *iddiaçının təhsil müəssisələrinin satınalmalarında fəaliyyəti haqqında məlumat;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 08 dekabr 2020-ci il saat 17:30-a qədər, tender təklifi və bank təminatını isə 16 dekabr 2020-ci il saat 17:30-a qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı 17 dekabr 2020-ci il saat 17:30-da dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

# Prezident Paşinyana qarşı müxalifətlə birləşir

## Ermənistanda ikihakimiyyətlilik yaranır

Ermənistanda böhranlı ictimai, sosial-siyasi vəziyyətin daha da dərinləşməsi hər keçən gün özünü daha qabarıq formada büruzə verir. Hakimiyyətlə müxalifət arasında kəskinləşən qarşıdurma ölkədə siyasi xaosa yol açıb. Xüsusən Ermənistanda vaxtilə hakimiyyətdə olmuş hərbi xunta Paşinyana qarşı fəallaşıb. Onlar müharibədəki məğlubiyyət səbəbindən baş nazirin mövqelərinin zəifləməsindən istifadə etməyə çalışırlar. Hələlik Sarkisyan-Koçaryan koalisiyası Qarabağ məsələsini sözdə müzakirə edir, çünki əsl niyyətləri ölkədə baş verəcək siyasi böhrandan yararlanmaqdır.













### İşğalçı ölkə həm döyüş meydanında, həm də diplomatik arenada məğlub olub

İki il öncə Ermənistanda hakimiyyəti ələ keçirmiş N.Paşinyan ötən müddət ərzində nəinki ölkə ictimaiyyətinin, hətta yaxın tərəfdarlarının da ümidlərini doğrulda bilməyib. Hökumət başçısının vaxtilə verdiyi vədlər söz olaraq qalıb, cəmiyyətdə siyasi ab-havanı sabitləşdirmək, milli iqtisadiyyatı irəli aparmaq üçün təsirli tədbirlər görülməyib.

Qarabağdakı məğlubiyyət fonunda isə Paşinyanın bəhanələri indiki halda boşboğazlıqdan o tərəfə keçmir, vətəndaşlar isə davam edən siyasi kataklizmləri müşahidə etmək məcburiyyətində qalmaq istəmir. Bunun nəticəsidir ki, günlərdir davam edən etiraz aksiyalarında Paşinyanın istefasını və müvəqqəti hökumətin formalaşdırılmasını tələb edirlər.

Artıq bu tələbə Ermənistan prezidenti Armen Sarkisyan da qoşulub. Belə ki, Ermənistanın prezidenti də müxalifətlə həmrəy olaraq hökumətin istefasını zəruri hesab edir. Ona görə A.Sarkisyan hökuməti və parlamenti növbədənkənar seçkilərə hazırlaşmağa çağırıb. Son günlər parlament və qeyri-parlament qüvvələri, ictimai qruplar, diaspor nümayəndələri ilə görüşdüyünü bildirən Ermənistan prezidentinin sözlərinə görə, bu görüşlərdə ümumi bir fikir səsləndirilib: hökumətin istefasının və ya Nazirlər Kabinetinin səlahiyyətlərinə son qoyulmasının və növbədənkənar parlament seçkilərinin keçirilməsinin zəruri olması. O qeyd edib ki, Ermənistan həm döyüş meydanında, həm də diplomatik arenada məğlub olub, yaralı iqtisadiyyat isə böyük sosial problemlərlə yüklənib və biz reallığı inkar edib adi həyatımızı yaşamağa davam edə bilmərik, yeganə çıxış yolu isə növbədənkənar parlament seçkilərinin keçirilməsidir. A.Sarkisyan hökuməti və hakim qüvvələri öz potensialını obyektiv qiymətləndirməyə, qısa müddətdə konstitusiya proseslərinin aparılması üçün yol xəritəsini təqdim etməyə çağırıb.

### Həbslər davam edir

Bu arada Yerevanın küçələrində hər gün etiraz aksiyalarında minlərlə insanın iştirak etdiyi bildirilir. Azadlıq meydanında 17 müxalifət partiyasının iştirakı ilə mitinqlər davam edir. Polis hər gün yüzlərlə aksiya iştirakçısını həbs edir. Buna baxmayaraq, etiraz aksiyalarının coğrafiyası getdikcə böyüyür. Aksiya iştirakçılarından Qaqik Mıxıtaryan bildirib ki, insanların səbir kasası dolub: "Paşinyan Ermənistanın şərəfi ilə oynadı. O, edam edilməlidir".

Maraqlı bir cəhət odur ki, etirazçılar "nə rusiyayönümlü, nə də qərbyönümlü" olduğunu deyirlər. Lakin hökumət dairələri etirazçılara keçmiş hərbi xuntanın damğasını vurmağa cəhd göstərirlər.

Yeri gəlmişkən, Ermənistan hökuməti etirazçıları qorxutmaq üçün sərt addımlara əl atır. Dünən ən son məlumatlara görə, paytaxt polisi "inzibati xətalar törətməkdə" təqsirli bilinən onlarla gənci həbs edib.

Ermənistan müxalifəti isə bildirib ki, hökumət sərt cəza tədbirləri ilə insanları qorxutmaq iqtidarında deyil. Çünki Ermənistan hakimiyyət dairələri xalqa rəhbərlik etmək üçün mənəvi haqlarını çoxdan itiriblər. Qeyd olunur ki, insanlar korrupsiyaya qurşanmış, xəyanətkar hakimiyyətlə barışa bilməzlər. Bu hökumət erməni xalqını eyni zamanda dilənçi gününə salıb.

### Hərbçilərə qarşı cinayət işi açılıb

Ermənistan ordusunda fərarilik və xaosun hökm sürməsi müharibənin ilk günlərindən özünü göstərmişdi. Fərarilik edənlər arasında erməni əsgər və hərbçilərlə yanaşı, separatçı rejimin "məmurları" da yer almışdı. Bu cür halların getdikcə çoxalması ermənilər arasında mənəvi durumun kifayət qədər acınacaqlı olduğunu göstərdi.

Son günlərdə Ermənistanın müdafiə nazirliyi tərəfindən bir sıra hərbçilərə qarşı cinayət işi açılıb və saxlanılanlar var. Bunu nazirliyin itkin düşmüş və əsir götürülmüş şəxslər komitəsinin sədri Vitali Voskanyan deyib. O qeyd edib ki, Qarabağdakı döyüşlər zamanı hərbi qulluqçuların ölümünə səbəb olan zabitlər arasında tutulanlar var. Onun sözlərinə görə, Cəbrayıl istiqamətindəki hərbi hissə zabitlərinə qarşı cinayət işi başlanıb, bununla bağlı kifayət qədər dəlil toplanıb. Bütün bunlar Ermənistan ordusunda hansı durumun hökm sürdüyünü göstərməklə yanaşı, vəziyyətin gündən-günə daha da gərginləşdiyini təsdiq edir.

### Paşinyan ittihamlara cavab verib

Baş nazir Nikol Paşinyan problemlərə aydınlıq gətirmək üçün parlamentə gəlib. Yerli mətbuatın yazdığına görə, zalda 67 deputatın iştirakı ilə iclas üçün kvorum təmin edilib. Paşinyana sual vermək üçün 31 millət vəkili qeydiyyatdan keçib. Lakin müxalifətçi deputatlar bu iclasda iştirak etməyiblər. Onlar yalnız baş nazirin istefası gündəmdə olduğu təqdirdə görüşə hazır olduqlarını bildiriblər.

Paşinyan hakim "Mənim addımım" fraksiyasının üzvləri qarşısında çıxışı zamanı "Şuşanın satıldığı" barədə onun ünvanına səslənən ittihamlara cavab verib. Bildirib ki, şəhər uğrunda döyüşlərdə Ermənistan ordusu olduqca böyük itkilər verib: "Əgər Şuşanı saxlamaq imkanı olardısa, onu saxlayardılar. Mən bu haqda danışmaq istəmirdim, amma məcburam deyəm. Son iki gündə Şuşa ətrafından 300-dən çox erməni döyüşçüsünün cəsədləri çıxarılıb. Siz bu döyüşün miqyasını təsəvvür edə bilirsinizmi?"

Nikol Paşinyan onu da əlavə edib ki, "Bizə Şuşa lazım idimi? Əgər lazım idisə, niyə belə vəziyyətdə idi? Bizə bu azad edilmiş ərazilər lazım idimi? Əgər lazım idisə, niyə?.. İndi deyirlər ki, niyə "Qarabağ prezidentinin" inauqurasiyası Şuşada keçirilib? Təsəvvür edin, 30 il bütün erməni elitası hesab edirdi ki, Şuşa Dağlıq Qarabağ şəhəridir və "Qarabağ prezidentinin" orada tədbir keçirmək haqqı yoxdur. Bax, Şuşa şəhəri onda - fikirlərdə olmayanda satılmışdı", - deyə o bildirib.

Paşinyan ictimaiyyətin ondan cavab tələb etməli olduğunu söyləyib, amma bununla yanaşı, əlavə edib ki, o da çoxlarından cavab tələb etməlidir: "Biz bu seçimi son iki il yarımda etdik. Bəlkə pis bir seçim idi. Bəlkə də başa düşmədik ki, bu seçim üzərində işləməyə macal tapmayacağıq və biz bu seçimdə məğlub olduq. Şəxsən mən buna görə tam məsuliyyət daşıyıram. Son 30 ildə şüurumuzda kök salmış "pul verəcəm, orduda xidmətdən azad olacağam" vətənpərvərlik modelinə yenidən baxmaq lazım idi".

Göründüyü kimi, işğalçı ölkədə vəziyyət daha da ağırlaşıb. Bir həftədən çoxdur davam edən itaətsizlik aksiyaları və kütləvi mitinqlər Paşinyanı çox çətin vəziyyətə salıb. Belə ki, daha da güclənən etirazlar fonunda onun iqtidarda qala bilməsi sual altına düşür.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Naxçıvanda “Bayraq mənliyimdir!” aksiyası təşkil olunub

Naxçıvan şəhərində 17 noyabr - Azərbaycan Dövlət Bayrağının Naxçıvanda qaldırıldığı gün münasibətilə “Bayraq mənliyimdir!” adlı aksiya təşkil olunub. AZƏRTAC xəbər verir ki, əlamətdar tarixi günün qeyd edilməsi, gənclərin Azərbaycan Ordusuna mənəvi dəstəyinin nümayişi, onların vətənpərvərlik və vətəndaşlıq tərbiyəsinin yüksəldilməsi, könüllü gənclərin fəallığının artırılması, asudə vaxtlarının səmərəli təşkili məqsədilə keçirilən aksiyada istedadlı gənclər tərəfindən vətənpərvərlik mahnıları və şeirlər səsləndirilib, könüllülər sakinlərə bayraqlar hədiyyə ediblər.



Layihə çərçivəsində keçirilən “Əsgərə məktub” aksiyasında isə gənclər, eləcə də muxtar respublikanın sakinləri tərəfindən şanlı Azərbaycan Ordusunun əsgərlərinə məktublar yazılıb.

Qeyd edək ki, 30 il əvvəl - 1990-cı il noyabrın 17-də ilk dəfə qədim Naxçıvan torpağında ucaldılan, milli suverenliyimizin simvolu, müqəddəs dövlətçilik rəmzlərindən biri olan bayrağımız bu gün işğaldan azad edilən torpaqlarımızda dalğalanır.

# Qazaxda şəhid ailələri və Qarabağ veteranlarına mənzillər təqdim edilib

Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan daim inkişaf edərək güclü dövlətə çevrilib və qarşısında duran vəzifələri qısa müddət ərzində uğurla yerinə yetirməyə qadir olan qüdrətli Orduya sahibdir.



AZƏRTAC xəbər verir ki, böyük tarixi Qələbəmizlə yekunlaşan 44 günlük Vətən müharibəsi bunu bütün dünyaya sübut etdi. Bu fikirlər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən daha 4 rayonda 26 fərdi yaşayış evinin təqdim edilməsi mərasimində bildirilib. Qazaxda 13, Kürdəmirdə 5, Qubada 3, Lənkəranda 5 şəhid ailəsinə və Qarabağ müharibəsi əlillərinə mənzillər təqdim edilib. Qazax rayonunda sahiblərinə təqdim edilən 13 mənzilin 6-sı şəhid ailəsinə, 7-si isə Qarabağ müharibəsi əlillərinə verilib. Mənzillərdən 8-i 3 otaqlı, 5-i isə 2 otaqlıdır.

Qazax rayonunda evlərin təqdim edilməsi tədbirində nazirliyin tabeliyindəki Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın idarə heyətinin sədri Elşən Əsədov, veteranlar və Qarabağ əlilləri, ictimaiyyət nümayəndələri iştirak ediblər. Yeni fərdi evlərlə təmin olunan şəhid ailələrinin üzvləri, Qarabağ müharibəsi əlilləri xalqımıza möhtəşəm Qələbə sevincini yaşadan Ali Baş Komandan İlham Əliyevlə, Silahlı Qüvvələrimizlə fəxr etdiklərini deyiblər.

Bildirilib ki, dövlətin şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə xüsusi diqqət və qayğısı razılıqla qarşılanır. 2020-ci ildə şəhid ailələri və müharibə əlillərinə rekord sayda - azı 1500 mənzil və fərdi ev verilməsi nəzərdə tutulub və onlardan artıq böyük əksəriyyəti sahiblərinə təqdim edilib. Bu proses qarşıdakı günlərdə də davam edəcək. Ümumilikdə, ötən dövrdə 8379 mənzil və fərdi ev bu kateqoriyadan olan vətəndaşlara verilib.

Vurğulanıb ki, haqq savaşımızda yaralanmış hərbçilərlə görüşü zamanı Prezident, Ali Baş Komandan İlham Əliyevin verdiyi tapşırığa uyğun olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tarixi Qələbəmizlə başa çatan Vətən müharibəsində şəhid olmuş insanların ailələrinə dəstəyin göstərilməsi, həmçinin onlara da mənzillərin, evlərin verilməsi üçün müvafiq işləri aparacaq.

## Bakı Metropoliteninin III yeni (Bənövşəyi) xəttinə aid “Xocasən” elektrik deposunun və İstismar sahələri üçün elektrik mallarının satın alınması üzrə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir: Bakı Metropoliteninin III yeni (Bənövşəyi) xəttinə aid “Xocasən” elektrik deposunun və İstismar sahələri üçün elektrik mallarının satın alınması

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız “ASAN Ödəniş” vasitəsilə həyata keçirdikdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə adı çəkilən tender bölməsində əldə edə bilərlər (Əlaqələndirici şəxs: Rauf Yusifov, telefon:490-01-01)

İştirak haqqı - 250 manat

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 08 dekabr 2020-ci il saat 11:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 16 dekabr 2020-ci il saat 11:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 17 dekabr 2020-ci il saat 11:00-da açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Səbail Rayon Mənzil-Kommunal Təsərrüfat Birliyi Nəqliyyat vasitələri üçün müxtəlif ehtiyat hissələrinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

LOT - Nəqliyyat vasitələri üçün müxtəlif ehtiyat hissələrinin **elektron satın alınması**

Malların, işlərin və xidmətlərin təchiz olunma müddəti - **2020-ci il ərzində.**

Tender iştirakçıları öz tender təkliflərini “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun və Əsas şərtlər toplusunun tələblərinə uyğun hazırlayaraq dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Tenderdə iştirak etmək istəyənlər **350** (üç yüz əlli) manat məbləğində iştirak haqqını **“ASAN Ödəniş”** vasitəsilə göstərilən hesaba ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər.

Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**Səbail Rayon Mənzil-Kommunal Təsərrüfat Birliyi**
**Hesab: AZ38CTRE00000000000002518333**
**VÖEN: 1700188251**
**Bank adı: Dövlət Xəzinədarlıq Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T.BIK: CTREAZ 22**
**Büdcə təsnifatının kodu: 142 330**
**Büdcə səviyyəsinin kodu: 7**

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü ərzində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü ərzində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanının arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi (əsasnaməsi) və dövlət qeydiyyatı haqqında şəhadətnamənin və reyestrdən çıxarışın surətləri (notarial qaydada təsdiq olunmalıdır);*
- *təşkilatın rəsmi blankında dərc olunmuş rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **08 dekabr 2020-ci il saat 13:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini isə **16 dekabr 2020-ci il saat 13:00-a** qədər vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **17 dekabr 2020-ci il saat 13:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri haqda Portal vasitəsilə tanış ola bilərlər.

***Tender komissiyası***

## “Sumqayıt Kimya Sənaye Parkı” MMC Cəmiyyətin balansında olan xidməti minik avtomobillərinə servis və texniki xidmətlərin göstərilməsi işlərinin satın alınması üçün kotirovka sorğusu keçirir

Kotirovka sorğusu iştirakçılarına təklif edilir ki, qiymət təkliflərini möhürlənmiş və imzalanmış şəkildə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün iştirakçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Prosedurda iştirak etmək istəyənlər Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu “Sumqayıt Kimya Sənaye Parkı” MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, “Demirchi Tower” də yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər. Əlaqələndirici şəxs - Abbas Mamedov (telefon: 012-488-80-65)

İddiaçılar kotirovka sorğusunda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

· kotirovka sorğusunda iştirak etmək üçün müraciət;
· iddiaçının tam adı, təşkilatın hüquqi forması, nizamnaməsi, şəhadətnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri, dövlət reyestrindən çıxarış və ƏDV ödəyicisinin qeydiyyat bildirişinin təsdiqlənmiş surətləri;
· Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış;
· texniki imkanlar barədə məlumat;
· satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olmasını təsdiq edən sənəd (əmr, təsisçilərin yığıncağının qərarı və s.).

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan təkliflər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Kotirovka sorğusu proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar prosedurda iştirak etmək üçün yuxarıda göstərilən sənədləri 20 noyabr 2020-ci il saat 18:00-dək “Sumqayıt Kimya Sənaye Parkı” MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, “Demirchi Tower” ünvanında yerləşən ofisinə yazılı formada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 23 noyabr 2020-ci il saat 12:00-da Bakı şəhəri, Xocalı prospekti, 37, “Demirchi Tower” də yerləşən ofisində, iclas zalında açılacaqdır.

Zərflərin açılmasında iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Səbail Rayon Mənzil-Kommunal Təsərrüfat Birliyi Xüsusi geyim formalarının satın alınması məqsədilə

### *açıq tender elan edir*

LOT - Xüsusi geyim formalarının **elektron satın alınması**

Malların, işlərin və xidmətlərin təchiz olunma müddəti - **2020-ci il ərzində.**

Tender iştirakçıları öz tender təkliflərini “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun və Əsas şərtlər toplusunun tələblərinə uyğun hazırlayaraq dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Tenderdə iştirak etmək istəyənlər **800** (səkkiz yüz) manat məbləğində iştirak haqqını **“ASAN Ödəniş”** vasitəsilə göstərilən hesaba ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər.

Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**Səbail Rayon Mənzil-Kommunal Təsərrüfat Birliyi**
**Hesab: AZ38CTRE00000000000002518333**
**VÖEN: 1700188251**
**Bank adı: Dövlət Xəzinədarlıq Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T.BIK: CTREAZ 22**
**Büdcə təsnifatının kodu: 142 330**
**Büdcə səviyyəsinin kodu: 7**

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü ərzində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü ərzində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanının arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi (əsasnaməsi) və dövlət qeydiyyatı haqqında şəhadətnamənin və reyestrdən çıxarışın surətləri (notarial qaydada təsdiq olunmalıdır);*
- *təşkilatın rəsmi blankında dərc olunmuş rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **07 dekabr 2020-ci il saat 12:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini isə **15 dekabr 2020-ci il saat 12:00-a** qədər vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **16 dekabr 2020-ci il saat 12:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri haqda Portal vasitəsilə tanış ola bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Sosial Sığorta və Fərdi Uçot üzrə Mərkəzi Filialı üçün ofis sahəsinin icarəsi xidmətinin satın alınması məqsədilə 21.08.2020-ci ildə elan etdiyi açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsi həyata keçirilmiş, qiymətləndirmənin nəticəsində “Bakı Avrasiya Universiteti” qalib müəyyən edilmişdir.

Qalib təşkilatla satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Əmək pensiyaları, sosial müavinət və ayrı-ayrı kateqoriyalı şəxslərə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin təqaüd, kompensasiya işlərinin mərkəzləşdirilmiş qaydada inventarlaşdırılmasının və arxivləşdirilməsinin həyata keçirilməsi, yerləşdirilməsi üçün ofisin icarəyə götürülməsi xidmətinin satın alınması məqsədilə 28.08.2020-ci ildə elan etdiyi açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsi həyata keçirilmiş, qiymətləndirmənin nəticəsində fiziki şəxs Qaze Həsən qızı Həsənova (VÖEN:1600110362) qalib müəyyən edilmişdir.

Qalib şəxslə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu tərəfindən “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq 2020-ci il üzrə Fondun maliyyə hesabatlarının auditor yoxlaması xidmətinin satın alınması məqsədilə audit şirkətinin seçilməsi ilə bağlı kotirovka sorğusu elan edir

Kotirovka sorğusunda müxtəlif meyarlar üzrə reytinq cədvəllərində qabaqcıl yerlərdə olan və analoji maliyyə institutlarında kənar auditinin aparılmasında uzunmüddətli təcrübəyə malik audit şirkətləri iştirak edə bilərlər. İddiaçılar satınalma prosedurunun predmetinə dair hazırlanmış əsas şərtlər toplusunu Sahibkarlığın İnkişafı Fondundan əldə edə bilərlər.

Təkliflər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Təkliflər 20 noyabr 2020-ci il saat 12:00-a qədər qəbul olunur.

Ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxs Əyyub Abdullayevə müraciət edə bilərlər.

Ünvan: Bakı şəhəri, Yasamal rayonu, A.M. Şərifzadə küçəsi, 172

Telefon: (012) 310 23 02

Fax: (012) 4323717 e-mail: info@edf.gov.az

***Tender komissiyası***

*Təkrar*

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi “Radio-Televiziya Yayımı və Peyk Rabitəsi” İstehsalat Birliyi

### *açıq tenderə dəvət edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

LOT-1. Regionlarda televiziya və radio yayımının keyfiyyətinin yüksəldilməsi və əhatə dairəsinin genişləndirilməsi üçün TV və FM radio yayım avadanlıqlarının, rəqəmli ehtiyat şəbəkə üçün rəqəmli TV yayım avadanlıqlarının alınıb quraşdırılması işlərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **https://etender.gov.az/** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba Asan Pay vasitəsi ilə köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Əlaqə telefonu: (mobil): (055) 4009507; (şəhər): (012) 4987780 Əlaqələndirici şəxs: Zöhrə Əfəndiyeva Elektron poçt: info@teleradio.az

**İştirak haqqı: 500 (beş yüz) manat**
**Rekvizitlər:**
**Hesab №: AZ29AZPO91015461200420100081**
**VÖEN: 9900037841**
**Bank: Azərpoçt MMC PF1**
**Kodu: 691011**
**VÖEN: 9900037711**
**M/H: AZ76NABZ01350100000000094944**
**SWIFT: AZPOAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər.

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində olan bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **02 dekabr 2020-ci il saat 11:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **10 dekabr 2020-ci il saat 11:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **11 dekabr 2020-ci il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

MİDA

# Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin növbəti layihəsi - Hövsan Yaşayış Kompleksində mənzillərin güzəştlə satışı barədə ELAN

Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi Zığ şossesi-Hava Limanı 12-ci km. "22" ünvanında yerləşən Hövsan Yaşayış Kompleksinin 1 saylı binası üzrə 27, 4 saylı binası üzrə 121, 5 saylı binası üzrə 260 və 6 saylı binası üzrə 93 mənzilin, ümumilikdə 501 mənzilin satışı 18 dekabr 2020-ci il tarixində saat 11:00-da başlayacaq və 28 dekabr 2020-ci il tarixi saat 11:00-dək davam edəcəkdir.

"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"na uyğun olaraq **gözləmə qaydasında mənzillərin seçimi** 22 dekabr 2020-ci il tarixində saat 11:00-da başlayacaq və 28 dekabr 2020-ci il tarixi saat 11:00-dək davam edəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli 1113 nömrəli Fərmanına əsasən Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzillərin əldə edilməsi "Elektron hökumət" portalı üzərində (www.e-gov.az) "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

Yalnız "Güzəştli mənzil" sistemində elektron kabinetə sahib olmuş vətəndaşlar mənzil almaq hüququna malikdir. Elektron kabinetə sahib olmuş bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq, mənzillərin seçimində bərabər hüquqa malikdir.

"Güzəştli mənzil" sistemindən istifadə qaydası ilə bağlı ətraflı məlumatla, o cümlədən mətn və video formatlı təlimatlarla www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış olmaq mümkündür.

## Satışa çıxarılan mənzillər barədə ümumi məlumat:

Satışa ümumilikdə 501 mənzil çıxarılır. Bütün mənzillər tam təmirli, mətbəx mebeli, kombi isitmə sistemi (kombi cihazı daxil olmaqla), su, qaz və elektrik sayğacları ilə təmin edilmiş vəziyyətdə təklif olunur.

Bütün binalar Azərbaycan Respublikasının Dövlət Tikinti Normalarına (AzDTN) uyğun layihələndirilib və inşa olunub. Bununla bağlı Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsinin 08.05.2018-ci il tarixli 25318 nömrəli müsbət rəyi mövcuddur.

**Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 1 saylı Bakı Ərazi İdarəsi tərəfindən mənzillərin mülkiyyət hüquqlarına dair "hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış"lar verilmişdir.**

| Bina № | Binanın yerləşdiyi torpaq sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 7076,02 | 7 | 18 | 1 | 9 | 37,9 - 38,8 | 47,7 - 48,82 | "HN Construction" MMC (binanın 1-ci və 3-cü seksiyaları) / Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi şossesi, ev 185, mənzil 14 "Perlit" MMC (binanın 4-cü və 5-ci seksiyaları) / Gəncə şəhəri, Azərbaycan Dövlət Aqrar Universitetinin yataqxanası, ev 6 | 29 dekabr 2019-cu il |
| | | | | 2 | 15 | 49,9 - 63,1 | 61,9 - 76,49 | | |
| | | | | 3 | 3 | 69,4 - 72,8 | 86,18 - 88,15 | | |
| 4 | 7076,02 | 7 | 18 | 1 | 26 | 37,9 - 39,2 | 47,85 - 49,96 | "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC (binanın 3-cü və 4-cü seksiyaları) / Bakı şəhəri, Nərimanov rayonu, Ağa Nemətulla küçəsi, ev 1937-ci məhəllə | 31 mart 2020-ci il |
| | | | | 2 | 90 | 49,9 - 68 | 61,39 - 83,52 | | |
| | | | | 3 | 5 | 67,2 - 72,1 | 84,99 - 86,68 | | |
| 5 | 7076,02 | 7 | 18 | 1 | 40 | 37,9 - 39,2 | 47,7 - 49,96 | "Merkuri-İnşaat" MMC ("Conco" MMC ilə konsorsium) (binanın 1-ci və 2-ci seksiyaları) / Bakı şəhəri, Xətai rayonu, Babək prospekti, ev 64, mənzil 143; "Araz İnşaatçı" MMC (binanın 3-cü, 4-cü və 5-ci seksiyaları) / Bakı şəhəri, Nərimanov rayonu, Həsənoğlu küçəsi, məhəllə 851, mənzil 10/86 | 28 fevral 2020-ci il; 29 mart 2020-ci il |
| | | | | 2 | 191 | 49,9 - 69,3 | 61,39 - 84,11 | | |
| | | | | 3 | 29 | 67,2 - 73,3 | 84,39 - 88,15 | | |
| 6 | 7076,02 | 7 | 18 | 1 | 13 | 37,9 - 39,1 | 48,08 - 49,96 | "MƏK-AN" MMM (binanın 4-cü seksiyası) / Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi 26N; "SNT" İnşaat Şirkəti (AKA Şirkəti ilə konsorsium) (binanın 5-ci seksiyası) / Bakı şəhəri, Nərimanov rayonu, Sabit Rəhman küçəsi, ev 28 | 29 mart 2020-ci il |
| | | | | 2 | 70 | 49,9 - 68 | 61,39 - 83,52 | | |
| | | | | 3 | 10 | 67,5 - 73 | 85,32 - 87,86 | | |

## Satış şərtləri və qiymətlər:

Bu elan çərçivəsində mənzillərin satışı həm **ipoteka kreditindən istifadə etməklə**, həm də **öz vəsaiti hesabına** ödəniş üsulu ilə nəzərdə tutulmuşdur.

***Qeyd:*** *"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nın 5.6-cı bəndinə əsasən mənzilin dəyərinin* ***ipoteka krediti hesabına ödəniş üsulunu yalnız ilkin razılıq qərarını alaraq elektron kabinetində yerləşdirilməsini təmin etmiş şəxs seçə bilər.***

1 otaqlı mənzillərin qiyməti – **32 215** manatdan,

2 otaqlı mənzillərin qiyməti – **42 415** manatdan,

3 otaqlı mənzillərin qiyməti – **57 120** manatdan başlayır.

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Vətəndaş mənzili Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun güzəştli ipoteka krediti vəsaiti hesabına aldıqda:

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* | | |
|---|---|---|---|---|---|
| | | | *1 otaqlı* | *2 otaqlı* | *3 otaqlı* |
| 4% | 3-30 il | 10% | 138-143 manat | 182-253 manat | 245-268 manat |

* Aylıq ödəniş – mənzil 10% ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda.

**DİQQƏT! Mənzilə güzəştli ipoteka krediti vasitəsilə sahib olmaq istəyən vətəndaş minimal ilkin ödənişdən artıq ödənilən məbləğə görə, mənzilin satış qiymətini tam həcmdə öz vəsaiti hesabına birdəfəlik ödəyən vətəndaş isə bütün məbləğə əlavə 10% endirim əldə edəcək.**

**Mənzilə öz vəsaiti hesabına birdəfəlik ödəniş edərək sahib olmaq istəyən vətəndaş üçün mənzillərin satışı aşağıdakı qiymətlərdən başlayır:**

| Otaqların sayı | Mənzilin qiyməti (manat) | Əlavə endirim məbləği (manat) | Əlavə endirimdən sonra mənzilin satış qiyməti (manat) |
|---|---|---|---|
| 1 | 32 215 | 3 221 | **28 994** |
| 2 | 42 415 | 4 241 | **38 174** |
| 3 | 57 120 | 5 712 | **51 408** |

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Hövsan Yaşayış Kompleksinin **www.hovsan.mida.gov.az** internet səhifəsinə daxil olaraq satışa çıxarılan hər bir mənzilin (və otaqlarının) dəqiq ölçüsü, qiyməti, tətbiq edilən güzəştlər və əlavə endirimlər, agent banklar haqqında məlumatla tanış olmaq, habelə ipoteka və güzəştli mənzil kalkulyatorları vasitəsilə müvafiq hesablamalar aparmaq mümkündür.

Güzəştlə mənzil əldə etmək hüququ olan şəxslər, mənzili güzəştlə əldə etmək üçün ərizənin təqdim olunması qaydası, gözləmə qaydasında mənzillərin seçimi və mənzillərin satış şərtləri, agent banklar barədə ətraflı məlumatla **www.mida.gov.az** və **www.mida.az** internet səhifələrində və ya müvafiq "ASAN xidmət" mərkəzlərinə (1, 3, 5 saylı, Sumqayıt və Gəncə), habelə "108" çağrı mərkəzinə müraciət edərək tanış ola bilərlər.

***Qeyd:*** *"Güzəştli mənzil" sisteminin istifadəçiləri satış modulundan istifadəyə dair və gözləmə qaydasında mənzil seçiminə dair təlimatlar ilə öz elektron kabinetlərinin müvafiq bölmələrində və ya www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış ola bilərlər.*


# OXUCULARIN NƏZƏRİNƏ

# "AZƏRBAYCAN"

***qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası başlayıb!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

*"Azərmətbuatyayımı" ASC* (012) 440-46-94, (070) 244-17-34
*"Azərpoçt" ASC* (012) 598-49-55, (051) 225-02-13
*"Qaya" firması* (012) 564-63-45, (050) 214-04-05
*"Kaspi" MMC* (012) 432-39-55, (012) 510-82-24
*"Region Press" MMC* (055) 316-79-01, (050) 316-79-01
*"Səma-M" MMC* (012) 594-09-59
*"Ziya" LTD* (012) 497-76-96, (050) 306-77-22
*"Pressinform" MMC* (012) 598-49-52, (070) 340-01-00
*"City press" MMC* (055) 819-09-26

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az


## B İ L D İ R İ Ş

"Azərişıq" ASC tərəfindən Yevlax və Goranboy rayonları ərazisində Aqroparkın elektrik təchizatı üçün 35/0,4 kV-luq yarımstansiyanın tikintisi, avadanlıqların quraşdırılması, 35 kV-luq hava xəttinin çəkilməsi və 35/0,4 kV-luq KTM-lərin quraşdırılması işlərinin açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə "Enerji Construction" MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 17.11.2020-ci il tarixdə ƏDV daxil 6 795 148,69 (altı milyon yeddi yüz doxsan beş min yüz qırx səkkiz manat 69 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Masallı Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədova anası

**SƏRFİNAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin deputatı, İntizam komissiyasının sədri Eldar İbrahimov Masallı Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədova anası

**SƏRFİNAZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Milli Elmlər Akademiyasının birinci vitse-prezidenti, akademik İsa Həbibbəyli Akif, Muxtar və Zakir İmanov qardaşlarına anaları

**İMMİ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Masallı Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədova anası

**SƏRFİNAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollektivi iş yoldaşları Həmzə Cəfərova atası

**YUSİFƏLİ CƏFƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollektivi iş yoldaşları Müşfiq İbişova anası

**ZƏRİFƏ İBİŞOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Masallı Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədova anası

**SƏRFİNAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sumqayıt Apelyasiya Məhkəməsinin sədri Səadət Bəktaşi və məhkəmənin kollektivi Sumqayıt Apelyasiya Məhkəməsi Aparatının rəhbəri Samir İsmayıla atası

**ŞAHİN MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Tərtər rayon prokuroru Şıxəli Alməmmədova anası

**QİYMƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

AMEA Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli və institutun kollektivi AMEA-nın Folklor İnstitutunun direktoru, akademik Muxtar İmanova anası

**İMMİ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Hüseyn Cavidin Ev Muzeyinin direktoru, filologiya üzrə elmlər doktoru Gülbəniz Babaxanlı və muzeyin kollektivi AMEA-nın Folklor İnstitutunun direktoru, akademik Muxtar İmanova anası

**İMMİ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Hacıqabul rayonundan Ayət Nadirov və poçt filialının kollektivi "Azərpoçt" MMC-nin baş direktoru Emin Əfəndiyevə atası

**RAMİQ ƏFƏNDİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7422
Sifariş 2643
Qiyməti 40 qəpik